QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 091 (5811) **21 may** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qәpik**

# Prezident İlham Əliyevin uğurlu siyasət tandemi-Xalqın Prezidenti



Səh 2

6

YAP-da ümumrespublika müşavirəsi keçirilib



6

Paşinyanın əleyhdarları Yerevanda etiraz aksiyası keçiriblər



7

"Qeydiyyatsız evlər sənədləşdiriləcəkmi?"



# Prezident İlham Əliyevin uğurlu siyasət tandemi-Xalqın Prezidenti

***Azərbaycan Prezidenti İlham Əliyevin çoxşaxəli fəaliyyəti bütün sahələrdə öz müsbət nəticələrini verməkdə davam edir. Belə ki, dünyanın qlobal problemlər burulğanında çalxalandığı bir zamanda, Azərbaycanın istər iqtisadi, istər sosial, istərsə də digər sahələrdə əldə etdiyi ardıcıl nailiyyətləri beynəlxalq aləm tərəfindən də yüksək qiymətləndirilir. Bu gün Azərbaycanın dünyanın mərkəzi rolunda çıxış etməsi faktorunun önə sürülməsi də əbəs deyil. Təbii ki, bütün bunlar birbaşa uzaqgörən, müdrik və məqsədyönlü siyasət yürüdən Cənab İlham Əliyevin nəhəng təcrübəsindən və bilgilərə malik olmasından irəli gələn reallıqdır. Məqsəd isə bir maraq üzərində qurulub - dövlətimizin daha da qüdrətli olması, xalqımızın rifah halının daha da yaxşılaşdırılması gerçəkliyi.***




Azərbaycanın dünyaya təqdim etdiyi yeni siyasi-iqtisadi model bir brendə çevrilib və bütün bunlar bazar iqtisadiyyatı prinsipləri əsasında hazırlanır, habelə, əlverişli biznes mühitinin yaradılmasını, insan kapitalının inkişaf etdirilməsini, sahibkarlara daha yaxşı şəraitin təmin olunmasını, dövlət mülkiyyətində olan müəssisələrlə bağlı islahataların həyata keçirilməsini və digər məsələləri nəzərdə tutur. Çünki Azərbaycanın hədəfi neftdən asılı olmayan güclü iqtisadiyyat formalaşdırmaqdır. Qəbul olunan və icra edilən yol xəritələri və digər qərarlar, əsasən, bu məqsədə xidmət edir.

Digər tərəfdən, Azərbaycan mühüm transmilli enerji layihələri həyata keçirir, bu layihələrin icrası qarşıdan gələn illərdə Azərbaycanın əhəmiyyətinin daha da yüksəlməsi və maliyyə imkanlarının artmasını təmin edəcəkdir. O cümlədən, ölkəmizin fəal iştirakçısı olduğu nəqliyyat dəhlizləri ölkənin regional gücə çevrilməsini, tranzit ölkə kimi imkanlarının böyük dərəcədə genişlənməsini və maliyyə imkanlarının artmasını təmin edəcək. Bütün bunları isə mərhələli şəkildə izah etmək mümkündür.

## Cənubi Qafqaz regionunun iqtisadi potensialının 70 faizi Azərbaycanda formalaşmışdır

- Ölkənin qeyr-neft sənayesinin inkişafı, yeni zavod və fabriklərin açılması, sənaye komplekslərinin yaradılması;

- kənd təsərrüfatının inkişafı ilə bağlı ardıcıl tədbirlərin həyata keçirilməsi, pambıqçılıq, tütünçülük, üzümçülük, baramaçılıq və digər sahələrin dirçəldilməsi, aqroparkların yaradılması, fermerlərə dövlət dəstəyinin gücləndirilməsi və s. Kənd təsərrüfatı sahəsində yeni islahat kursunun məqsədi ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün institusional potensialın gücləndirilməsini, aqrar sahə üzrə dövlət tənzimlənməsinin effektivliyinin yüksəldilməsini, biznes mühitinin yaxşılaşdırılmasını, kənd təssərrüfatı məhsullarının istehsal imkanlarının artırılmasını, bazar infrastrukturunun təkmilləşdirilməsini və istehsalçıların bazara çıxışının asanlaşdırılmasını nəzərdə tutur;

- turizmin inkişafı, yeni turizm mərkəzlərinin yaradılması, otellərin tikintisi, viza rejiminin sadələşdirilməsi, xidmətin keyfiyyətinin yüksəldilməsi və s;

- müasir texnologiyaların inkişafı, Azərbaycanın kosmik dövlətə çevrilməsi;

- ölkənin ixrac potensialının gücləndirilməsi istiqamətində fəal siyasət;

- regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarının icrası nəticəsində bölgələrin sürətli inkişafı, bütün infrastrukturun müasir tələblər çərçivəsində yenidən qurulması;

- sahibkarlara dövlət dəstəyi, biznes mühitinin yaxşılaşdırılması;

- xarici investisiyaların təşviqi və s;

Bu gün Cənubi Qafqaz regionunun iqtisadi potensialının 70 faizi Azərbaycanda formalaşmışdır. Ölkəmiz iqtisadiyyatın rəqabət qabiliyyətliliyinə görə, dünya ölkələri arasında öncül yerlərdən birini tutur. Dünya Bankının biznes mühitinə dair hesabatına görə, Azərbaycan dünyada 25-ci yerdədir. Beynəlxalq reytinq agentlikləri Azərbaycanın potensial maliyyə və iqtisadi imkanlarını yüksək qiymətləndirirlər.

## Sosial sahəni əhatə edən mərhələlər

Bildiyimiz kimi, 2019-cu ilin əvvəlindən başlayaraq, əhalinin sosial təminatının daha da gücləndirilməsi və rifah halının yüksəldilməsi istiqamətində ciddi tədbirlər həyata keçirilməyə başlanılıb və bu gün də dinamik şəkildə davam etdirilməkdədir. Bu dinamiklik əhalinin bütün təbəqələrinə öz müsbət təsirlərini göstərir:

- Azərbaycan Prezidentinin müvafiq fərman və sərəncamları, maaşların, pensiyaların, sosial müavinətlərin, müxtəlif istiqamətlər üzrə ödənişlərin kəskin artırılması;

- Ölkədə yoxsulluğun və işsizliyin səviyyəsinin minimuma endirilməsi;

- Sosial paketin həyata keçirilməsi və 3 milyondan çox insanın öz maddi vəziyyətini yaxşılaşdırması;

- Sosial infrastrukturun yenidən qurulması;

- Dövlət başçısının vətəndaşlarla görüşü, onların problemlərinin həlli ilə bağlı yerindəcə verdiyi tapşırıq və göstərişləri;

- Cənab Prezidentin regionlara səfərləri, mövcud vəziyyətlə yerində tanış olması, açılışlarda iştirakı, problemlərin həlli ilə bağlı verdiyi tövsiyə və tapşırıqları;

- Yeni iş yerlərinin yaradılması;

- Şəhid ailələri, müharibə əlilləri, məcburi köçkünlərin problemlərinin həlli, 100-dən çox köçkün qəsəbəsinin salınması, yüz minlərlə insanın müasir yaşayış şəraiti ilə təmin edilməsi;

- Səhiyyə, təhsil və mədəniyyət müəssisələrinin müasir dövrün tələblərinə uyğun yenidən qurulması;

- İdmanın inkişafı, Olimpiya mərkəzlərinin və yeni idman qurğularının tikintisi;

- Paytaxtda və bölgələrdə aparılan abadlıq işləri, parkların, xiyabanların salınması, insanların rahatlığının təmin olunması üçün həyata keçirilən çoxsaylı digər tədbirlər;

- İcbari tibbi sığorta və əhalinin tibbi müayinəsinin təşkil edilməsi;

- Aztəminatlı ailələr üçün sosial evlərin tikilməsi;

- Özünüməşğulluq proqramının geniş tətbiqi və s.

Mədəni irsin qorunub-saxlanması, milli və dini tolerantlığın daha da gücləndirilməsi, mədəniyyət abidələrinin, dini məbədlərin bərpa olunması və bu istiqamət üzrə digər çoxsaylı tədbirlər həyata keçirilən dövlət siyasətinin əsas istiqamətlərdən biridir. Bütün bu amillər qeyd edilən fikirlərlə sintez təşkil edir və bu sintez Azərbaycan xalqının sosial-rifah halının gücləndirilməsinə xidmət göstərir.

## Radikal müxalifətin, daxildə və xaricdəki antimilli qrupların fəaliyyəti ifşa olunur və xalq onların əsl simasını yaxşı tanıyır

Belə bir deyim var: "Daxili sabitlik olmazsa, heç bir inkişafdan danışmağa dəyməz". Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizin daxilində yaratdığı sabitlik mühiti bir sıra məqamlarda özünü sübuta yetirib. Çünki Azərbaycanın daxilində ictimai-siyasi sabitliyin, təhlükəsizliyin, əmin-amanlığın təmin edilməsi, milli həmrəyliyin möhkəmləndirilməsi istiqamətində yürüdülən məqsədyönlü siyasət antimilli ünsürləri və onların havadarlarının yollarına keçilməz sədd çəkir. Onlar sabitliyə qarşı nə qədər pozuculuq fəaliyyəti göstərsələr də, həmin cəhdlər ifasa uğrayır. Belələrinin, yürüdülən siyasətin mahiyyətini təhrif etmək, ictimai rəyi çaşdırmaq istiqamətində apardıqları qarayaxma kampaniyası anındaca ifşa olunur, sözdə siyasətçi yığnaqları rüsvayçı məğlubiyyətlərə, ardıcıl olaraq, tuş gəlirlər. Bəs bu uğurların təməlində hansı sirrlər dayanır?

-Dünyanın müxtəlif bölgələrində gedən mürəkkəb proseslər, ayrı-ayrı ölkələrdə müşahidə olunan gərginlik fonunda Prezident İlham Əliyevin yürütdüyü müstəqil siyasət ölkəmizin milli maraqlarının qorunmasını, Azərbaycanda sabitliyi, təhlükəsizliyi və ölkənin dinamik inkişafını təmin edir;

Ardı Səh. 3

# Prezident İlham Əliyevin uğurlu siyasət tandemi-Xalqın Prezidenti

Əvvəli Səh. 2

-Radikal müxalifət xaricdən aldığı sifarişlərə əsasən, qondarma iddialar irəli sürərək, hakimiyyəti gözdən salmağa, ölkədə sabitliyi pozmağa və bu yolla hakimiyyətə təzyiq göstərərək, özünün və xarici havadarlarının siyasi və iqtisadi iddialarını reallaşdırmağa cəhd edir;

- Ayrı-ayrı şəxslər, siyasi qruplar populyarlaşmaq və ictimai rəydə təsdiq olunmaq üçün bu və ya digər məsələləri qabardır, bunun üzərində öz təbliğatlarını qurmağa çalışırlar;

- Müxtəlif yollarla xarici ölkələrə üz tutub, çirkin kampaniyalara cəlb olunan antimilli ünsürlərin əməlləri öz dövlətinə və xalqına qarşı xəyanətdən başqa bir şey deyil;

- Xarici anti-Azərbaycan qüvvələr nəzarətlərində olan media və QHT şəbəkəsi vasitəsilə ölkəmizə qarşı çirkin kampaniya aparır, bununla da, öz maraqlarını təmin etməyə çalışırlar. Mayın 29-da Avroliqanın finalı ilə əlaqədar təşkil olunan qarayaxma kampaniyası bunu bir daha sübut edir;





- Radikal müxalifətin, daxildə və xaricdəki antimilli qrupların fəaliyyəti ifşa olunur və xalq onların əsl simasını yaxşı tanıyır.

## Məhkəmə-hüquq sistemi sahəsində islahatların dərinləşdirilməsi

- Ədalət mühakiməsinin keyfiyyətinin və səmərəliliyinin artırılması məqsədilə ədalət, qanunçuluq, qərəzsizlik, aşkarlıq, hər kəsin qanun və məhkəmə qarşısında bərabərliyinin təmin edilməsi;

- Cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması üzrə tədbirlərin davam etdirilməsi;

- sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması və bu sahədə ixtisaslaşmış məhkəmənin yaradılması;

- Hakimlərin müstəqilliyini təmin etmək məqsədilə məhkəmələrin fəaliyyətinə müdaxilənin qarşısının alınması mexanizmlərinin təkmilləşdirilməsi;

- hakimlərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə onların maddi təminatının əhəmiyyətli dərəcədə artırılması;

- Mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatının səmərəliliyinin artırılması;

- Məhkəmələrin və digər orqanların qərarlarının qanunla müəyyənləşdirilən müddətdə icrasının təmin edilməsi, “Elektron icra - informasiya” sisteminin tətbiqinin genişləndirilməsi, icra məmurlarının süründürməçilik və sui-istifadə hallarına yol vermələrinin qarşısının alınması.

Struktur islahatları, idarəçilik mexanizminin təkmilləşdirilməsi və şəffaflığın təmin olunması sahəsində:

- Dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi;

- Müasir kadr potensialının gücləndirilməsi;

- Dövlət orqanlarının fəaliyyətində bürokratiya və süründürməçilik kimi neqativ halların aradan qaldırılması;

- Korrupsiya və rüşvətxorluğun aradan qaldırılması ilə bağlı institusional, sistem xarakterli tədbirlərin həyata keçirilməsi;

- “ASAN Xidmət” nümunəsinin genişləndirilməsi və s.

## Azərbaycan fəal, prinsipial və milli maraqlara hesablanmış müstəqil xarici siyasət yürüdür

Beləliklə, xarici siyasətə də önəmli uğurların qazanılması birbaşa daxili siyasətdəki ardıcıllıqların məntiqi nəticəsidir.

Çünki Azərbaycan fəal, prinsipial, milli maraqlara hesablanmış müstəqil xarici siyasət yürüdür, yüksək beynəlxalq nüfuza malikdir, regionun siyasi, iqtisadi, humanitar mərkəzi rolunu oynayır, bir sıra səmərəli təşəbbüslərin, yeni əməkdaşlıq formatların müəllifi və fəal iştirakçısıdır, bölgədə və dünyada sülhün, sabitliyin, təhlükəsizliyin qorunmasına əməli töhfə verir. Azərbaycan xarici əlaqələrini daim genişləndirir, dünyada etibarlı tərəfdaş kimi tanınır və beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlığını inkişaf etdirir. Bakı mühüm beynəlxalq tədbirlərin keçirildiyi məkandır.

Azərbaycan hakimiyyəti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn prinsip və normaları, Azərbaycanın ərazi bütövlüyü əsasında həlli istiqamətində prinsipial siyasət yürüdür və heç bir qüvvə onu öz mövqeyindən çəkindirə bilməz!

**Rövşən RƏSULOV**

## *Rəsmi xronika*

Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası Ülyahəzrət II Elizabet Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb. Təbrikdə deyilir: “Milli bayramınız - Respublika Günü münasibətilə Zati-alinizə təbriklərimi çatdırmaqdan böyük məmnunluq hissi duyuram. Qarşıdakı illərdə Azərbaycan xalqına firavanlıq və xoşbəxtlik arzulayıram”.

***

Azərbaycan Prezidenti İlham Əliyev Zurab Seretelinin “Dostluq” ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında mədəni əlaqələrin möhkəmləndirilməsində səmərəli fəaliyyətinə görə Zurab Konstantinoviç Sereteli “Dostluq” ordeni ilə təltif edilir.

***

Azərbaycan Prezidenti İlham Əliyev Kürdəmir rayonunda “ASAN xidmət” mərkəzinin layihələndirilməsi və tikintisinin başa çatdırılması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib. Təbrikdə deyilir: “Zati-aliləri, Qardaşım İlham Heydər oğlu Əliyev. Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Səudiyyə Ərəbistanı Krallığının xalqı və Hökuməti adından, şəxsən öz adımdan Zati-alinizə ən səmimi təbriklərimi çatdırıram. Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan dövlətinə və xalqına davamlı inkişaf və rifah arzu edirəm”.

# Humanizm prinsiplərinə söykənən fəaliyyət

*Heydər Əliyev Fondunun ötən 15 il ərizində həyata keçirdiyi layihələr Azərbaycanın tərəqqi və inkişafına öz töhfələrini verib*

***Dünyada gedən qloballaşma prosesində milli-mənəvi dəyərlər qorunub saxlanılır və milli dərk, milli ideologiya, azərbaycançılıq məfkurəsi əsas aparıcı xətt olaraq təbliğ edilir. Bu prosesdə Heydər Əliyev Fondu əhəmiyyət kəsb edən layihələrə imza atır. Fond Azərbaycan tarixi və mədəni abidələri, xalçaçılıq sənəti, muğam sənəti və s. ətrafında təbliğat işləri aparır, dünyanı mədəni irsimizlə tanış edir və onun inkişafına çalışır. Ölkəmizin milli-mənəvi dəyərlərinin üzə çıxarılması, Azərbaycanın bir dövlət olaraq məxsusiliyinin dünyəviləşməsi istiqamətində fondun həyata keçirdiyi işlər tarixin bu günü üçün deyil, zamanın axarında əsrlərin yaddaşında da iz buraxacaq hadisələrə bağlıdır.***



Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyevanın Azərbaycan üçün gördüyü işlər yaşadığımız qloballaşma dövründə, Azərbaycanın dünyaya inteqrasiya etdiyi bir zamanda, əhəmiyyət kəsb edir. Heydər Əliyev Fondunun bu günə qədər həyata keçirdiyi irimiqyaslı layihələrin hər biri humanizm prinsiplərinə söykənərək, xalqın sosial rifahının yüksəlməsinə yönəlib. Müxtəlif yaşda olan insanlara qayğı fondun əsas fəaliyyət istiqamətini təşkil edir. "Fondun fəaliyyətinin əsas istiqamətlərindən biri Azərbaycan cəmiyyətinin müdafiəyə ən çox ehtiyacı olan üzvlərinə, uşaq evləri və internatlardakı uşaqlara və yeniyetmələrə, qaçqın və məcburi köçkün uşaqlarına, habelə, müxtəlif xəstəliklərə mübtəla olan uşaqlara yardım göstərilməsi ilə bağlıdır" deyir Mehriban xanım Əliyeva. İnsanlara yardım etmək, kimsəsizə əl tutmaq prinsipi ilə yaşayan Mehriban xanım Əliyeva respublikanın işıqlı gələcəyi üçün böyük işlər görür. Fəaliyyəti ilə mərhəmətini, sadəliyini, insanlara sevgisini ifadə edən Mehriban xanım Əliyeva "İstərdim ki, mərhəmətlilik insanlara, peşə fəaliyyətindən asılı olmayaraq, xas olsun" deməklə, istənilən bir insanın ən ali keyfiyyətləri sırasında mərhəmətin olmasını arzulayır.

Azərbaycan cəmiyyətində gənc nəslin biliklərə yiyələnməsini və ölkəmizin dünya təhsil sisteminə inteqrasiyasını prioritet məsələlərdən hesab edən təhsilin inkişafına yönəlmiş genişmiqyaslı proqram və layihələri, qısa bir zaman məsafəsində, böyük uğurlara səbəb oldu. "Uşaq evləri və internat məktəblərinin inkişafı" Proqramı çərçivəsində respublika üzrə uşaq müəssisələri əsaslı şəkildə təmir edilmiş, yeni avadanlıqla təchiz olunmuş, əlavə yardımçı binalar tikilmiş və kommunal şərait yaxşılaşdırılmışdır. Azərbaycanın Birinci Xanımının təşəbbüsü ilə uşaq evlərində tərbiyə almış, yaşı 18-dən yuxarı olan qızlar üçün Bakının Nizami rayonunda 50 mənzilli yaşayış binası tikilib istifadəyə verilmişdir.

## AZƏRBAYCANDA TOLERANTLIĞIN, DÖZÜMLÜLÜYÜN, DÜNYA MƏDƏNİYYƏTLƏRİNİN RƏNGARƏNGLİYİNƏ HÖRMƏTİN QƏDİM KÖKLƏRİ VAR

Azərbaycanda bütün dövrlərdə, ictimai-siyasi quruluşdan asılı olmayaraq, müxtəlif dillərdə danışan, müxtəlif dinləri təmsil edən insanlar sülh, əmin-amanlıq və qarşılıqlı hörmət şəraitində bir ailə kimi yaşayıblar. Bu gün də belədir. Müasir dünyamızda çoxkonfessiyalı və çoxmillətli Azərbaycan bu ənənələrə sadiqdir və bu, ən böyük sərvətlərdən biridir. Təsadüfi deyildir ki, son illər mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa töhfələrini verir. Müasir dövrümüzdə Heydər Əliyev Fondu, nəinki Azərbaycanın, eləcə də, ümumdünya mədəni irsinin qorunmasına böyük əhəmiyyət verir. Fondun layihələrindən olan "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində Avropada Versal Sarayının memarlıq abidələrinin, kafedral kilsənin vitrajlarının bərpası Azərbaycanda tolerantlığın, dözümlülüyün, dünya mədəniyyətlərinin rəngarəngliyinə hörmətin qədim və möhkəm kökləri olduğunu özündə bir daha ehtiva edir. Azərbaycanın Birinci Xanımı Mehriban Əliyeva Roma şəhərinin ətrafında yerləşən 60-a yaxın katakombaların bərpasında əhəmiyyətli işlərə imza atmışdır. Müqəddəs Marçellinio və Pietro katakombaları xristian aləmi üçün ən mühüm və ən maraqlı abidələrdən biridir və bu addım dinlər və mədəniyyətlərarası dialoqun daha bir parlaq nümunəsi olaraq tarixə yazıldı. Romanın belə nüfuzlu arxeoloji abidəsinin bərpasına töhfəsini verən Heydər Əliyev Fondu tarixi missiyasını həyata keçirmiş oldu. Heydər Əliyev Fondunun Fransanın Orn Departamentinin Santiyi, Fresnay o Sovaj, San-İler la Jerar, Tanvil, Kurjust, Revoyon və Mal yaşayış qəsəbələrində X-XII əsrlərə aid 7 kilsənin bərpasına yardım etməsi də "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində reallığa çevrilib.



## ÖLKƏMİZİN MADDİ VƏ MƏNƏVİ İRSİ YUNESKO -NUN NADİR ƏSƏRLƏRİ SIRASINDADIR

Bu gün Azərbaycanla YUNESKO arasında əlaqələr davamlı şəkildə həyata keçirilir. Bu istiqamətdə Heydər Əliyev Fondunun apardığı məqsədyönlü fəaliyyətini xüsusi qeyd etməliyik. Azərbaycanın maddi və mənəvi irsinin YUNESKO-nun nadir əsərləri sırasına daxil edilməsi beynəlxalq əməkdaşlığın əsas göstəriciləridir. Belə ki, hazırda muğam ifaçılığı sənəti, Azərbaycan aşıq sənəti, Novruz Bayramı, Azərbaycan xalçası, Tar ifaçılığı sənəti, "Kəlağayı simvolizmi və ənənəvi sənəti" və s. YUNESKO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına, Çövkən-Qarabağ Atüstü Oyun ənənəsi isə YUNESKO-nun təcili qorunmaya ehtiyacı olan Qeyri-Maddi Mədəni İrs Siyahısında yer alması Azərbaycanla bu təşkilat arasında olan əməkdaşlığın davamlığını diqqətə çatdırır. Sözsüz ki, sadaladığımız nadir irsin bu siyahıya daxil edilməsində Heydər Əliyev Fondunun rolu xüsusidir.

Heydər Əliyev Fondunun fəaliyyət göstərdiyi sahələrdən biri də elm və texnologiyadır. Azərbaycan həqiqətlərinin internet şəbəkəsi vasitəsilə dünyaya yayılması və xalqımızın min illər boyu yaratdığı maddi-mənəvi dəyərlərin dünyaya tanıdılması məqsədi ilə fond tərəfindən materialların həcminə, zənginliyinə və əhatəliliyinə, habelə, istifadə olunmuş internet texnologiyalarına görə ölkəmizdə analoqu olmayan "Azərbaycan" internet portalı yaradılıb. Azərbaycan, ingilis və rus dillərində tərtib olunan "Azərbaycan" portalı ölkəmizin beynəlxalq aləmdə təbliği işinə, dünyada Azərbaycan haqqında tam, həqiqi və dolğun təsəvvür yaradılmasına böyük kömək göstərir. Eyni zamanda, Heydər Əliyev Fondu tərəfindən müxtəlif saytlar və multimedia diskləri hazırlanıb.

Azərbaycan haqqında həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırmağa önəm verən Heydər Əliyev Fondu tərəfindən həyata keçirilmiş layihələr sırasında "Qarabağ həqiqətləri" bukletlər toplusunun nəşri xüsusi əhəmiyyətə malikdir. Qarabağın tarixi, Ermənistan-Azərbaycan, Dağlıq-Qarabağ münaqişəsinin başlanması, onun nəticəsində ölkəmizə dəyən ziyan, Xocalı faciəsi, ermənilərin dünyanın müxtəlif ölkələrində törətdikləri terror aktları haqqında faktları əks etdirən və ingilis, fransız, alman, rus və macar dillərində nəşr olunmuş bukletlər indiyədək bir çox xarici ölkələrdə yayılmışdır. "Müharibə və tarixi-mədəniyyət abidələrimiz" kitabında Azərbaycanın işğal olunmuş ərazilərindəki ziyarətgahlar və digər tarixi-mədəniyyət abidələri haqqında ətraflı məlumat verilir.

"Qarabağ həqiqətləri" silsiləsinin davamı olaraq, Heydər Əliyev Fondu Ermənistanın Azərbaycan mədəniyyətinə, maddi-mənəvi irsimizə qarşı məqsədyönlü şəkildə həyata keçirdiyi vandalizm siyasətindən və onun acı nəticələrindən bəhs edən "Azərbaycana qarşı müharibə: mədəni irsin hədəfə alınması" kitabını ingilis dilində nəşr etdirib. Kitaba işğal olunmuş rayonlarımızdakı mədəni sərvətlərimizin siyahısı, xəritələr, habelə, Ermənistan ərazisində və işğal altındakı bölgələrimizdəki tarixi və mədəniyyət abidələrimizin əvvəlki və indiki vəziyyətini əks etdirən videomateriallar əlavə olunub.

Mehriban xanım Əliyeva azərbaycançılıq ideyalarının carçısı olaraq Azərbaycandan kənarda da amalını gerçəkləşdirmək yönümündə irimiqyaslı layihələri ilə çıxış edir. Onun böyük təşəbbüsü ilə müasir dövrümüzdə fondun ABŞ, Rusiya Federasiyası, Rumıniya və Türkiyədə nümayəndəlikləri fəaliyyət göstərir. Sözsüz ki, bu cür dövlətlərdə nümayəndəliklərin yaranması Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında əhəmiyyətlidir. Xüsusən, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətini beynəlxalq ictimaiyyətə çatdırmasında, birmənalı olaraq, fəaliyyətini davam etdirir. Bildiyimiz kimi, hər il dünyanın bir sıra böyük şəhərlərində - Moskva, Berlin, Strasburq, Brüssel, Buxarest, Cenevrə, Ankara, İstanbul, Paris, Praqa, Vaşinqton, Nyu-York, Varşava, London, Haaqa, Dubay, Kiyev, Tbilisi və başqa ölkələrdə Xocalı soyqırımının ildönümünə həsr olunmuş aksiyalar həyata keçirilir ki, bunların hər birində təşəbbüskar Heydər Əliyev Fondudur.

15 illik fəaliyyəti dövründə əldə etdiyi bu və ya digər nailiyyətlər fondun qeyri-hökumət təşkilatı olaraq təkcə Azərbaycanda deyil, beynəlxalq aləmdə böyük nüfuz qazandığını göstərir. Azərbaycanın çiçəklənməsi, beynəlxalq nüfuzunun artmasına böyük töhfələr verən Heydər Əliyev Fondunun gələcək fəaliyyətinin əsasında qeyd etdiyimiz məsələlərin daha da geniş bir planda həyata keçirilməsi dayanır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# YAP-da birgə Fəaliyyət Planına dair kommunike imzalanıb







***Dünən Yeni Azərbaycan Partiyası (YAP) ilə Mədəniyyət Nazirliyi arasında Azərbaycanın dövlətçilik ənənələrinin yaşadılması məqsədilə vətənpərvərlik və mədəni dəyərlərə hörmət hisslərinin gücləndirilməsinə dair birgə Fəaliyyət Planına dair kommunike imzalanıb. SİA-nın verdiyi məlumata görə, sənəd 2019-2020-ci illəri əhatə edir.***

Tədbirdə çıxış edən Baş nazirin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov ulu öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyasının təkcə siyasi sahədə deyil, ölkəmizin mədəni həyatında da mühüm rol oynadığını bildirib: "Yeni Azərbaycan Partiyasının fəaliyyəti çoxşaxəlidir. Partiyamızın təşkilatçılığı ilə müxtəlif mədəniyyət tədbirləri keçirilir. Bu gün imzalanacaq sənəd də bu işdə mühüm rol oynayacaq. Prezident İlham Əliyev tərəfindən 2019-cu il "Nəsimi İli" elan edilib. Tədbirlər Planı çərçivəsində bununla bağlı da müxtəlif layihələr reallaşdırılacaq".

Mədəniyyət naziri Əbülfəs Qarayev birgə fəaliyyətin insanların mədəni rifahına xidmət edəcəyini bildirib. Ulu öndər Heydər Əliyevin xalqımız qarşısındakı xidmətlərindən danışan Ə.Qarayev qeyd edib ki, Ümummilli Lider hər zaman fəaliyyətində xalqına arxalanır və güvənirdi. Nazir deyib ki, hər zaman Azərbaycan mədəniyyətinə, incəsənətinə xüsusi diqqət və qayğı ilə yanaşan Ulu Öndər onun inkişafı, təbliği istiqamətində mühüm addımlar atıb.




Ümummilli lider Heydər Əliyevin qurub-yaratdığı müasir müstəqil Azərbaycanın bu gün Prezident İlham Əliyev tərəfindən böyük uğurlara imza atdığını vurğulayan Əbülfəs Qarayev təqdim olunan Tədbirlər Planının əhəmiyyətindən bəhs edib, bu sənəd çərçivəsində bir sıra mühüm tədbirlərin keçirilməsinin nəzərdə tutulduğunu deyib. Sonra Tədbirlər Planına dair təqdimat olub.

***Ceyhun Rasimoğlu***

## Əli Əhmədov: Partiyamızın sıralarında 740 min nəfər insan var ki, burada mədəniyyət işçiləri də kifayət qədər geniş şəkildə təmsil olunur

"Yeni Azərbaycan Partiyası Azərbaycan cəmiyyətinin çox müxtəlif təbəqələrini özündə birləşdirir. Partiyamızın sıralarında 740 min nəfər insan var ki, burada mədəniyyət işçiləri də kifayət qədər geniş şəkildə təmsil olunur və YAP-ın fəaliyyətinə öz töhfələrini verməkdədirlər". Bu fikirləri Baş nazirin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov deyib.

Əli Əhmədov bildirib ki, Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası təkcə ictimai-siyasi həyatımızla deyil, digər sahələr, o cümlədən ölkənin mədəni həyatında da yaxından iştirak edən insanlardan ibarətdir. Buna görə də YAP-ın həyata keçirdiyi fəaliyyət təkcə siyasətlə bağlı deyil, müxtəlif fəaliyyət sahələri, o cümlədən mədəniyyət və incəsənətlə bağlı olan sahələri əhatə edir. Onun sözlərinə görə, YAP-ın çox tanınmış simaları içərisində Azərbaycan mədəniyyətini, incəsənətini, ədəbiyyatını təmsil edən çoxlu sayda şəxslər var: "Onlar həm mədəniyyət və incəsənətə böyük töhfələrini verirlər, həm də, Azərbaycanın möhtəşəm siyasi təşkilatı olan YAP-ın fəaliyyətinin güclənməsi istiqamətində də xidmət göstərirlər. Beləliklə, partiyamızın fəaliyyəti çoxşaxəlidir. Hesab edirəm ki, partiyamızın cəmiyyətdəki nüfuzunun yüksək olmasının səbəbləri bir tərəfdən onunla əlaqədardır ki, Heydər Əliyev ideyalarını daşıyan YAP iqtidarın formalaşmasında bilavasitə rol oynayır, Prezident İlham Əliyevin siyasətinin uğurlu nəticələrin əldə olunmasında iştirak edir. Digər tərəfdən, YAP cəmiyyətin bütün təbəqələrinin yüksək nüfuzunu qazanmış bir təşkilat kimi fəaliyyət göstərir".

Əli Əhmədov qeyd edib ki, Yeni Azərbaycan Partiyası mədəniyyət, incəsənət nümayəndələri ilə qarşılıqlı fəaliyyətinə yeni təkan, yeni nəfəs vermək niyyətindədir. YAP-ın Mədəniyyət Nazirliyi ilə yaxşı əlaqələrinin olduğunu deyən Əli Əhmədov qeyd edib ki, uzun illər davam edən bu əməkdaşlığın yeni bir mərhələyə çatdırılmasına xüsusi ehtiyac var. O, deyib ki, birgə fəaliyyət planında bır sıra layihələrin həyata keçirilməsi nəzərdə tutulur. Bu layihələr sırasına mədəni, tarixi dəyərlərimizin qorunması və təbliği, dövlətçilik ənənələrinin gücləndirilməsi, partiya üzvlərinin, o cümlədən gənclərin muzeylərə, teatrlara gedişinin təmin olunması, nüfuzlu mədəniyyət xadimləri ilə görüşlərin təşkil olunması və s. daxildir. YAP Sədrinin müavini qeyd edib ki, Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş dövlət mədəniyyət siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir: "Eləcə də, Heydər Əliyev Fondu tərəfindən mədəni irsimizin təbliğ olunması istiqamətində mühüm layihələr reallaşdırılır. Yeni Azərbycan Partiyası və Mədəniyyət Nazirliyinin birgə layihələri də bu fəaliyyətə töhfə verəcək".

# Əhalinin gəlirləri 17 milyard manatı ötüb



Yanvar-aprel aylarında ölkə əhalisinin gəlirləri əvvəlki ilin müvafiq dövrünə nisbətən nominal ifadədə 5,5 faiz artaraq 17 milyard 72 milyon manata çatıb. SİA Dövlət Statistika Komitəsinin məlumatına istinadən xəbər verir ki, bildirilib ki, əhalinin hər nəfərinə düşən gəlirlər 1729 manat olub. Bütün icbari və könüllü ödənişlər edildikdən sonra əhalinin sərəncamında 15 milyard 660,9 milyon manatlıq vəsait qalıb.

## Vergi daxilolmalarının tam əksəriyyəti qeyri-neft sektorundan qaynaqlanıb



Vergi sahəsində həyata keçirilən islahatlar, vergi yükünün azaldılması, qanun qarşısında hər kəsin bərabər olması, biznesin şəffaflaşdırılması, vergiödəyicilərinə münasibətlərin təbiətinin dəyişdirilməsi öz nəticələrini verməkdədir. Vergilər Nazirliyinin Media və kommunikasiya mərkəzindən AZƏRTAC-a bildirilib ki, bu fikirləri vergilər naziri Mikayıl Cabbarov səsləndirib.

Ötən illə müqayisədə vergi yığımlarının əhəmiyyətli şəkildə artırılmasına nail olunduğunu söyləyən M.Cabbarov vergi daxilolmalarının tam əksəriyyətinin qeyri-neft sektorundan qaynaqlandığını diqqətə çatdırıb: "Ticarət sektoru üzrə dövriyyə təxminən 24 faiz artıb. Pərakəndə ticarətdə cəmi dövriyyə təxminən 35 faiz, ictimai iaşədə isə 15 faiz təşkil edib. Bunlar çox yüksək rəqəmlərdir. Qeyri-neft sektorunda rəsmiləşdirilmiş əmək müqavilələrinin sayı bu ilin ilk 4 ayında 58 min artıb. Bunlar əyani göstərir ki, atılan addımlar öz effektini verməkdədir".



# YAP-da ümumrespublika müşavirəsi keçirilib

***Yeni Azərbaycan Partiyasının rayon və şəhər təşkilatlarının ümumrespublika müşavirəsi keçirilib. SİA-nın verdiyi məlumata görə, müşavirədə çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov ötən müddət ərzində ölkəmizin ictimai-siyasi həyatında uğurların davam etdiyini, iqtisadiyyatın artdığını, ictimai-siyasi sabitliyin möhkəmləndiyini bildirib.***

O qeyd edib ki, ötən dövrün mənzərəsini Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında geniş təhlil edib: “Ölkəmizdə iqtisadi inkişaf davam etməkdədir və ümumi iqtisadi inkişafın artım tempi yüksəlir. Bu ondan xəbər verir ki, Azərbaycan iqtisadiyyatında Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən islahatlar öz bəhrəsini verməkdədir. İnkişaf tempi müxtəlif sahələrdə özünü göstərir. Ən başlıca cəhət ondan ibarətdir ki, iqtisadiyyatın şaxələndirilməsi nəticəsində qeyri-neft sektorunda inkişafın sürəti, xüsusilə sənaye sahəsində artım tempi digər sahələrlə müqayisədə xeyli yüksəlib. Qeyri-neft sektorunun inkişafı neft sektorunun inkişafından daha yüksək templə artmaqdadır. Bu ondan xəbər verir ki, bütövlükdə Azərbaycanda sənaye istehsalı, o cümlədən kənd təsərrüfatı artmaqdadır. Eləcə də, ölkəmizin sənaye məhsullarının ixracında artım var. Bunun nəticəsində də büdcəyə daxil olan vəsaitlər artır və bunun nəticəsində də əhalinin sosial rifahının daha yaxşıdırılması istiqamətində vacib addımlar atılır”.





Baş nazirin müavini qeyd edib ki, bu ilin əvvəlindən dövlət başçısının müvafiq sərəncamları nəticəsində əhalinin müxtəlif kateqoriyalarının sosial müdafiəsinin gücləndirilməsi yönündə əhəmiyyətli addımlar atılıb. “Sosial sahədə son bir ildə, xüsusilə 2019-cu ilin əvvəlindən inqilabi addımlar atılır. Bu ilin əvvəlində minimum əməkhaqqı təxminən 40 faiz artırıldı. Bunun nəticəsində 600 min insanın əməkhaqları təxminən 40 faiz artdı. Minimum pensiyalar da 40 faiz artırıldı. Eləcə də dövlət başçısının Sərəncamı ilə sosial müavinətlər və təqaüdlər orta hesabla iki dəfə artırıldı. Bu isə o deməkdir ki, ölkəmizdə sosail ədalət prinsipi qorunur, ilk növbədə həssas təbəqələrə qayğı göstərilir. Dövlət başçısı problemli kreditlərin həlli ilə bağlı Fərman imzalamaqla 800 min insana dəstək verdi. Eləcə də məcburi köçkünlər üçün aylıq sosial müavinətin, tələbə təqaüdlərinin artırılması və digər addımlar bütövlükdə 3 milyona yaxın insanı əhatə edir. Azərbaycanda 2.5 milyona yaxın ailə var və demək olar ki, sosial sahədə ilin əvvəlindən atılan addımlardan təxminən hər bir ailə bu və ya digər dərəcədə faydalanır”-deyə, Əli Əhmədov vurğulayıb.

YAP Sədrinin müavini qeyd edib ki, ölkəmizdə iqtisadi inkişaf nəticəsində əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün əlavə imkanlar yaranır və bu imkanlar da insanların sosial müdafiəsinin gücləndirilməsinə sərf olunur. Xüsusi diqqət göstərilən təbəqələrdən biri də məcburi köçkünlərdir. Dövlət tərəfindən onlar üçün əlavə tədbirlər görülür. Plan və istək bundan ibarətdir ki, məcburi köçkünlər üçün tikilən evlərin sayı daha da artırılsın.

“Təbii ki, Azərbaycanın imkanları genişləndikcə, maliyyə resursları artdıqca Prezidentimizin qeyd etdiyi kimi, insanların rifahının daha da yaxşılaşdırılması üçün bundan sonra da addımlar atılacaq. Bu addımlar nəticəsində insanlar daha da yaxşı yaşayacaqlar, onların həyatının keyfiyyəti yüksələcək. Bundan sonra da, həyatımız daha da yaxşılaşacaq, insanların rifahı daha da yüksələcək. Vətəndaşlarımız əmin ola bilərlər ki, dövlətimiz və Prezidentimiz İlham Əliyev insanların rifahının yüksəlməsi naminə nə mümkündürsə edir və bundan sonra da edəcək. Beləliklə, görülən genişmiqyaslı işlər göz qabağındadır. Azərbaycan hökumətinin həyata keçirdiyi sosial siyasətin mahiyyəti daha aydın şəkildə özünü büruzə verməkdədir”, - deyə Əli Əhmədov vurğulayıb. Azərbaycanın qazandığı uğurları gözügötürməyən qüvvələr olduğunu deyən YAP Sədrinin müavini qeyd edib ki, bu dairələrin qarayaxma kampaniyasının qarşısı alınmalıdır. Buna görə də, vətəndaşlar, o cümlədən partiyamızın üzvlər həyata keçirilən dövlət siyasətinin uğurlarını daha geniş şəkildə təbliğ etməlidirlər.



## “Mədəniyyət müəssisələri turistləri qarşılamağa hazırdır”

“Bakı Olimpiya Stadionunda təşkil olunacaq futbol üzrə UEFA Avropa Liqası turnirinin final oyunu ilə əlaqədar Azərbaycanın bütün mədəniyyət müəssisələri turistləri qarşılamağa hazırdır”. SİA-nın verdiyi məlumata görə, bunu jurnalistlərə açıqlamasında Mədəniyyət naziri Əbülfəs Qarayev deyib. Nazir bildirib ki, bununla bağlı Mədəniyyət Nazirliyində iclas keçirilib: “Bu gün səhər bu məsələ və digər tədbirlərlə bağlı iclas keçirilib və tapşırıqlar verilib. Ümumilikdə, respublika üzrə muzey və teatr müəssisələri yayın ortasına qədər fəaliyyət göstərəcək və daha sonra tətilə çıxacaq”.

## Rusiya Elmlər Akademiyasının prezidenti Azərbaycana gəlir



Rusiya Elmlər Akademiyasının prezidenti, akademik Aleksandr Sergeyev bu gün ölkəmizə səfər edəcək. Azərbaycan Milli Elmlər Akademiyasından SİA-ya verilən məlumata görə, A.Sergeyev və rəhbərlik etdiyi nümayəndə heyəti ilk dəfə Azərbaycan Milli Elmlər Akademiyasında olacaq. Səfər çərçivəsində hər iki akademiya arasında elmi-texniki əməkdaşlıq haqqında Saziş imzalanacaq. Qonağın bir sıra yüksək səviyyəli görüşləri nəzərdə tutulur.

## Paşinyanın əleyhdarları Yerevanda etiraz aksiyası keçiriblər




Ermənistanın Baş naziri Nikol Paşinyana qarşı çıxan “Adekvad” ictimai təşkilatının üzvləri Avropa İttifaqının nümayəndə heyətinin Yerevanda yerləşən ofisinin qarşısında etiraz aksiyasına başlayıb. Bu barədə xarici KİV-lər xəbər verir. “Ermənistanda son zamanlar baş verən bütün hadisələrə əsas etibarilə bu qurum sponsorluq edir. Ölkədə konstitusiya quruluşunun devrilməsi Avropa İttifaqının gündəliyində olub və bu proses azı bir il bundan öncə hakimiyyətin qəsb olunması ilə başlayıb”, - deyə aksiyanın təşkilatçılarından biri Artur Danielyan bildirib. Onun sözlərinə görə, bu məsələdə təkcə Paşinyan deyil, həmçinin prosesə sponsorluq edən qurumlar da günahkardır. Aksiya iştirakçıları ofisin hasarına “Ermənistan işğal altında”, “Öz marionetlərinizi geri qaytarın”, “İndi xoşbəxtsiniz?”, “Why so Soros” sözləri yazılmış plakatlar vurublar.

# Bəstəkarlıq məktəbinin böyük nümayəndəsi

*Dövlət başçısının Sərəncamı ilə Arif Məlikovun xatirəsi əbədiləşdiriləcək*



Azərbaycanın görkəmli bəstəkarı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, SSRİ və Azərbaycan Respublikasının xalq artisti Arif Məlikovun milli musiqimizin inkişafında xidmətləri böyük olmuşdur. 1933-cü il sentyabrın 13-də Bakı şəhərində anadan olmuş sənətkar 1948-1951-ci illərdə Bakı Musiqi Texnikumunda oxumuş, 1953-1958-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasında bəstəkarlıq ixtisası üzrə ali təhsil almışdır. Əmək fəaliyyətinə 1951-1952-ci illərdə Şuşa şəhər Musiqi Məktəbində müəllim kimi başlayan Arif Məlikov 1960-cı illərdən taleyini Azərbaycan Dövlət Konservatoriyası ilə bağlayaraq, burada 1966-1968-ci illərdə baş müəllim, 1968-1978-ci illərdə dosent, 1979-1986-cı illərdə professor və 1986-cı ildən ömrünün sonunadək bəstəkarlıq kafedrasının müdiri vəzifələrində çalışmışdır. Yaratdığı əsərləri dünya səhnələrində ifa edilmişdir. Arif Məlikov Azərbaycan mədəniyyəti tarixinin yetirdiyi sənətkarlar nəslinin parlaq yaradıcılıq ənənələrini layaqətlə davam etdirmiş və milli musiqi salnaməsinə yeni səhifələr yazmışdır. Zəmanəmizin böyük bəstəkarı Qara Qarayevin bəstəkarlıq məktəbinin istedadlı yetirməsi və davamçısı olmaqla, onun hələ tələbəlik illərindən etibarən müxtəlif janrlarda bəstələdiyi əsərlər diqqəti cəlb etmiş və musiqisevərlər tərəfindən dərin rəğbətlə qarşılanmışdır. Belə bir sənətkarın xatirəsini əbədiləşdirmək məqsədilə, Azərbaycan Prezident İlham Əliyev Sərəncam imzalayıb. Sərəncama əsasən, Fəxri Xiyabanda Arif Məlikovun qəbirüstü abidəsi qoyulacaq. Bakı şəhərindəki küçələrdən birinə bəstəkarın adı veriləcək. Bununla yanaşı, Bakı şəhərində Arif Məlikovun heykəli ucaldılacaq, paytaxtımızda yerləşən musiqi məktəblərindən birinə Arif Məlikovun adı veriləcək.

Qeyd edək ki, bəstəkarın musiqi mədəniyyətimizin çoxəsrlik tarixə malik bünövrəsi zəminində və müasir kompozisiya texnikasını mükəmməl mənimsəyib, yüksək professionallıqla yaratdığı simfoniya, balet, operetta, kantata, vokal, kamera və instrumental əsərlər misilsiz sənət nümunələri olaraq, Azərbaycan musiqi xəzinəsinin qiymətli inciləri sırasında özünə həmişəlik yer tutmuşdur. Onun kino və dram tamaşalarına yazdığı musiqi, eləcə də, romans və mahnıları məşhur sənətkarların ifasında səslənərək, geniş populyarlıq qazanmışdır. Arif Məlikovun bəşəri idealları özündə dolğun əks etdirən əsərləri ölkəmizin hüdudlarından kənarda bu gün də uğurla səsləndirilməkdədir. “Məhəbbət əfsanəsi” baletinin isə dünyanın tanınmış teatr səhnələrində yarım əsrdən artıq bir dövrdə tamaşaya qoyulması musiqi mədəniyyətimizin möhtəşəm nailiyyətlərindəndir.

Bəstəkarlıq fəaliyyəti ilə yanaşı, Arif Məlikovun ictimai fəaliyyəti də zəngin və çoxşaxəli olmuşdur. Arif Məlikov SSRİ xalq deputatı olaraq, respublikamızın ictimai-siyasi həyatında ötən əsrin son onilliklərində cərəyan edən taleyüklü hadisələrə münasibətdə daim vətənpərvər ziyalı mövqeyi nümayiş etdirmişdir.

Onun Azərbaycan musiqi mədəniyyətinin inkişafı və təbliği sahəsində uzunmüddətli səmərəli fəaliyyəti dövlət tərəfindən layiqincə və yüksək qiymətləndirilmişdir. O, bir sıra fəxri adlara layiq görülmüş, Azərbaycan Respublikasının ali mükafatlarından “Heydər Əliyev”, “İstiqlal” və “Şöhrət” ordenləri ilə təltif olunmuşdur.

Böyük bəstəkar, görkəmli pedaqoq, əsl ziyalı və gözəl insan Arif Məlikovun yaratdığı əsərlər milli musiqi sənəti tariximizdə müstəsna yer tutur.

***Zümrüd BAYRAMOVA***

## Tamara Sinyavskaya: Heydər Əliyev Müslümü çox sevirdi və Bakıda bizim üçün toy məclisi təşkil etdi



Rusiyanın Birinci kanalının “Eksklüziv” verilişi Müslüm Maqomayevə həsr edilib. AZƏRTAC xəbər verir ki, verilişin aparicisi Dmitri Borisov dahi müğənninin hazırda ABŞ-da yaşayan qızı Marina Maqomayevanın evində olub. Marina Maqomayeva atası, Tamara Sinyavskaya ilə münasibətlərindən danışıb. O deyib ki, həyat yoldaşı, musiqiçi Aleksandr Kozlovski ilə ailə həyatı qurandan sonra ABŞ-a köçüb. “Amerikaya köçmək barədə heç zaman düşünmürdüm. Mənim üçün Bakıda yaşamaq yaxşı idi”, deyən M.Maqomayeva vurğulayıb və əlavə edib ki, özü də anası da Müslüm Maqomayevin ikinci həyat yoldaşı Tamara Sinyavskaya ilə hər zaman yaxşı münasibətlərdə olublar: “Anamla Tamara indi də ünsiyyətdədirlər, bir birinə hər zaman salam göndərirlər. Biz dəfələrlə Tamaranı ABŞ-dakı evimizə qonaq çağırmışıq, lakin o, səhhəti ilə əlaqədar gələ bilmir”.

Verilişdə Tamara Sinyavskaya Müslüm Maqomayevlə tanışlıqlarının tarixçəsindən danışıb. Qeyd edib ki, onların toyunu Azərbaycanın ümummilli lideri Heydər Əliyev Bakıda təşkil edib: “Heydər Əliyev Müslümü çox sevirdi və Bakıda bizim üçün toy məclisi təşkil etdi. Azərbaycanlılar üçün bu, onların fəxrli oğullarının toyu idi. Əlbəttə, hamı mənə sınayıcı nəzərlərlə baxırdı. Mən də özümü ədəbli aparırdım, buna görə də tənbeh olunmadım və əvəzində “gəlin” adına layiq görüldüm. Müslüm mənə deyirdi: “Tamara, sən bütün Azərbaycanın gəlinisən”.

## Cüzeppe Kaniliya: Azərbaycan İtaliya üçün olduqca vacib ölkədir



İtaliya Azərbaycanlılarının Koordinasiya Şurasının təsis toplantısında Azərbaycan həqiqətlərinin təbliği üçün görəcəyimiz işləri müzakirə etdik. Azərbaycan İtaliya üçün olduqca vacib ölkədir. İki ölkə arasında müxtəlif istiqamətlərdə, həmçinin siyasi və iqtisadi sahələrdə yaxşı əlaqələr var.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Neapol-Bakı Assosiasiyasının prezidenti Cüzeppe Kaniliyan deyib.

Təşkilatının fəaliyyətinə toxunun Cüzeppe Kaniliyan qeyd edib ki, Assosiasiya yarandığı 2014-cü ildən indiyədək iki ölkə arasında mədəni və iqtisadi əlaqələrin daha da möhkəmlənməsində yaxından iştirak edib və bir sıra tədbirlərin təşkilatçısı olub.

# “Qeydiyyatsız evlər sənədləşdiriləcəkmi?”



***“Ötən həftə Pekində keçirilən beynəlxalq konfrasda iştirak etdiyim üçün mənə ünvanlanan bir sıra məsələləri cavablandırmaq istərdim.” Məsələ ilə bağlı SİA-ya açıqlamasında iqtisadçı-ekspert Vüqar Bayramov aşağıdakı sualları cavablandırıb.***

*- Qeydiyyatsız evlər sənədləşdiriləcəkmi?*

- Azərbaycan Prezidentinin sənədsiz evlərin özəlləşdirilməsi ilə bağlı problemin həll edilməsi ilə bağlı tapşırığından sonra bu məsələ ilə əlaqədar formalaşdırılmış komissiyanın fəaliyyətinin güclənməsi hiss olunur. Qeyd edim ki, İqtisadi və Sosial İnkişaf Mərkəzi (CESD) 2014-cü ildə sənədsiz inşa edilmiş tikililərin sənədləşdirilməsi ilə bağlı təkliflər paketini Azərbaycan hökumətinə təqdim etmişdi. Təklif etdiyimiz mexanizm ilə bağlı isə son həftələr fərqli işə məsul dövlət qurumlarında görüş və müzakirələrimiz olub. Əvvəlla, bizim təkliflərimiz “Əmlak Aministiyası”nı nəzərdə tutur. O baxımdan yaxın zamanda sənədsiz əmlaka aministiya verilməsi məqsədəuyğun olardı. İlkin monitorinqlər göstərir ki, Bakı və ətrafdakı ərazilərdə sənədsiz həyət evlərinin sayı 450 mindir. Onların 70 minə yaxını inşaata icazə verilməyən və ya nisbətən riskli hesab edilən ərazilərdədir. Bunlar yüksək gərginlikli elektrik, mavi qaz, yaxud su xətlərinin yaxınlığında olan evlərdir. Təklif edirik ki, əgər elektrik, ya da su xəttinin istiqamətini dəyişmək mümkünsə, o zaman evə toxunulmasın. Bununla da həmin ərazi təhlükəli zona anlayışından çıxarılsın. Amma su, qaz xəttinin üstündə tikilən evlərə real təhlükə varsa ev sahiblərinə kompensasiya ödənilməklə evlərin köçürülməsi təmin edilsin.

Bizim konsepsiyasında daha çox Rusiyada tətbiq edilən praktikadan istifadə olunub. Burda söhbət dövlət tərəfindən müəyyənləşdirilmiş kiçik tariflərə uyğun olaraq məsələnin həllindən gedir. Çünki həmin evlərin böyük bir qisminin icra hakimiyyətlərindən, yaxud bələdiyyələrdən sənədləri var. Mənzil sahiblərinin günahı deyil ki, bələdiyyə onlara sənəd verib, onlar da həmin sənədlə evlərini özəlləşdirə bilmirlər. Əgər bu cür sənədlərlə evi özəlləşdirmək mümkün deyilsə, həmin sənədlər verilməməli idi. Xüsusən də ev sahiblərinin həmin sənədləri müəyyən xərc bahasına aldıqları da nəzərə alınmalıdır. Bizim mexanizm ondan ibarətdir ki, evlərin rəsmiləşdirilməsi üçün çox simvolik məbləğ müəyyənləşdirilməli və məbləğ ev sahibi üçün hər hansı bir ağırlıq yaratmamalıdır. Məbləğ ödənildikdən sonra evlərin qeydə alınması və “kupça” ilə təmin olunması prosesi başlanmalıdır. Əslində, bu prosedur dövlətin özü üçün də əhəmiyyətlidir. Bir tərəfdən ev sahiblərinin mülkiyyət hüquqları təmin edilir, digər tərəfdən də əmlak vergiyə cəlb olunur. Ona görə problemin həlli dövlət qurumlarının özünün marağında olmalıdır və onlar qısa zamanda məsələnin aradan qaldırılmasına çalışmalıdır.

*- Rüsumların artırılmasının iqtisadi əsasları varmı?*

- Ötən həftə Parlamentdə “Dövlət rüsumu haqqında” qanuna dəyişiklik layihəsinin müzakirəsi olub. Bu layihədə diqqəti cəlb edən bir sıra məqamlar var. Əvvəlla, 2 illik çoxdəfəlik giriş vizalarının rəsmiləşdirilməsi üçün dövlət rüsumu 350 ABŞ dolları təklif edilir. Maraqlıdır ki, turizimin inkişafının prioritet olduğu bir dövrdə çoxdəfəlik giriş viza üçün izah edilməsi çətin olan məbləğdə viza rüsumu təklif olunur. Avropa Birliyinin 26 ölkəsinə çoxdəfəlik giriş imkanı verən 5 illik vizanı pulsuz aldığım halda biz müddəti 2.5 dəfə az olan Azərbaycan vizasını Avropa ölkəsi vətəndaşına 350 dollara təklif ediirik. Bu təbii ki, turizmin inkişafına birbaşa əngəldir. Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən bu ilin birinci rübündə ölkəmizə 610,8 min turist gəlib və bu ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,9 faiz azdır. Göründüyü kimi, bu il ölkəyə gələn turistlərin sayında azalma var. Aprel ayında isə cəmi 0.1 faiz artım olub. Belə olan halda, yüksək rüsumların təklif edilməsinin iqtisadi əsaslarını izah olunması mümkün deyil. Bu rüsumdan dövlət büdcəsinin də ciddi qazancı olmayacaq. Əksinə ölkəyə gələn turistlərin sayına mənfi təsir göstərəcək. Başqa tərəfdən, məktəbəqədər təhsil müəssisələri, yəni uşaq bağçaları açmaq üçün 3 000 manat rüsum təklif olunur. Əksər inkişaf etmiş ölkələrdə məktəbəqədər təhsil müəssisələri yaratmaq üçün dövlət subsidiya və ya güzəştli kredit təklif edir, biz isə yüksək rüsumlar ilə yeni bağçaların açılmasının qarşısını alırıq. Halbuki, məktəbəqədər təhsil müəssisələrində təhsilin və tərbiyənin keyfiyyətini artırmaq üçün bu sektorda rəqabəti gücləndirməliyik. Nəzarətin artırılması ilə belə müəssisələrin sayının çoxalması bu sahədə daha keyfiyyətli xidmətin təklif olunmasına imkan yarada bilər.

*- Problemli kreditlər ilə bağlı Maliyyə Bazarlarına Nəzarət Palatası yanında yaradılan Apellyasiya Komissiyasına edilən müraciətlərə niyə cavab verilmir?*

- Qeyd edək ki, mövcud qaydalara əsasən, komissiya 30 iş günündə müraciətləri cavablandırmalıdır. Yəni 30 gün deyil, 30 iş günü ərzində müraciətlərə baxılır. Bu baxımdan, hər bir müraciətçi ərizəsini təqdim etdiyi günü nəzərə almaqla nə zaman palatadan cavab alacağını müəyyənləşdirə bilər. Müraciətlərə cavab hətta kompensasiyalar verilib qutardıqdan sonra gəlsə də belə, bu, problem yaratmır. Çünki müraciətinə müsbət cavab verilmiş kreditorlar üzrə kompensasiya ödənişi həyata keçiriləcək. Yəni, kompensasiyaların verilməsinin bu ayın sonu başa çatmasına baxmayaraq Apellyasiya Komissiyası hər hansı bir probemli kreditə ödəniş edilməsi ilə bağlı iyun ayında qərar qəbul edərsə o ödəniş həyata keçiriləcək. Bütövlükdə proses ilin sonunadək tamamlanacaq. Komissiya müraciətə mənfi cavab verərsə o zaman vətəndaşın o qərardan məhkəməyə müraciət hüququ var. Bu o deməkdir ki, komissiyanın qərarı son mərhələ deyil.

***Ceyhun Rasimoğlu***

# Ekoloji problemin həlli və ətraf mühitin qorunması hər bir insanın mənəvi borcudur

## Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevin yap.org.az-a müsahibəsi



***-Muxtar müəllim, məlum olduğu kimi dövlət başçısının qərarları ilə bir sıra dövlət qurumlarında struktur islahatları aparılır. Bu baxımdan, ölkə rəhbərinin müvafiq Fərmanına əsasən Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı hansı tədbirlər həyata keçirilir?***

-Nazirliyin fəaliyyət istiqamətləri genişdir, amma çalışacağam ki, qısa cavab verməklə suallarınızı tam əhatə edim.Hazırda fəaliyyət istiqamətlərimizə biomüxtəlifliyin, su və torpaq ehtiyatlarının, atmosfer havasının mühafizəsi, meşələrin və yaşıllıqların qorunması və sahəsinin artırılması, tullantıların idarə olunması, təbii sərvətlərdən səmərəli istifadə, geoloji kəşfiyyat, geodeziya və kartoqrafiya, ətraf mühitin monitorinqi, hidrometeorologiya və s. məsələlər daxildir. Bu da öz növbəsində qeyd olunan sahələr üzrə idarəetməni davamlı inkişaf prinsiplərinə uyğun qurmağı zəruri edir.

Cənab Prezidentin rəhbərliyi ilə aparılan struktur islahatların əsas məqsədi də idarəetmədə çevikliyi və səmərəliliyi artırmaq, cəmiyyətdə formalaşan yeni çağırışlara və iqtisadiyyatda baş verən struktur dəyişikliklərinə adekvat uyğunlaşmanı təmin etməkdir. Bu Fərman Nazirliyin bugünkü və gələcək fəaliyyəti üçün son dərəcə əhəmiyyətlidir. Optimallaşma nəticəsində paralel strukturların aradan qaldırılması və mövcud strukturların yenidən təşkili ilə büdcə vəsaitinə qənaət olunacaqdır.

Fərmandan irəli gələn fəaliyyətlərin icra edilməsi nəticəsində vətəndaşlara şəffaf, operativ və resurslara qənaət etməklə xidmət göstəriləcək, dövlət xidmətləri daha əlçatan və keyfiyyətli olacaqdır.

***-Azərbaycanda ekoloji təhlükəsizliyin təmin edilməsi dövlət siyasətinin prioritetlərindəndir. Bu istiqamətdə hansı işlər görülür?***

-Ölkəmizin zəngin təbiətini qorumaq, bərpa etmək üçün yeni layihələr həyata keçirilir. Ekoloji tarazlığın qorunması, təbii ehtiyatların, o cümlədən, faydalı qazıntıların, su, torpaq, hava kimi əvəzsiz sərvətlərin, meşələrin və biomüxtəlifliyin mühafizəsi sahəsində mövcud olan "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası, "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair 2017-2020-ci illər üçün Milli Strategiya", "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri" və digər dövlət proqramları çərçivəsində mövcud ekoloji problemlərin həlli istiqamətində müvafiq tədbirlər həyata keçirilir.

Uzun illər ərzində neft sənayesinin fəaliyyətindən əmələ gəlmiş tullantılar Abşeron yarımadasında bir sıra ərazilərin həddindən artıq çirklənməsinə səbəb olmuşdur. Çirklənmiş ərazilərin bərpası əhalinin sağlamlığı üçün risklərin azaldılması, Bakı şəhəri və ətraf qəsəbələrin inkişafı, təmizlənmiş ərazilərin iqtisadi dövriyyəyə qaytarılması baxımından zəruridir.

Bununla əlaqədar ETSN tərəfindən 2018-ci ildə Suraxanı rayonunda müxtəlif ərazilərdə, Heydər Əliyev Beynəlxalq Hava Limanının ərazisində uzun illər formalaşan gölməçələrin qurudulması, neft və neft şlamı ilə çirklənmiş ərazilərin təmizlənməsi işləri aparılır.

Abşeron yarımadasında tullantı və lay suları ilə çirklənmiş göllər ekoloji şəraitə ciddi təsir göstərir və Xəzər dənizinin çirkləndirilməsində mühüm rol oynayır.

Yarımadada göllər üzrə araşdırmalar aparılmış, 9 gölün (Xocasən, Binəqədi, Lökbatan, Qaradağ, Qu, Zabrat, Zığ, Bülbülə və Böyükşor)ekoloji vəziyyətinin yaxşılaşdırılması istiqamətində tədbirlərin görülməsi prioritet hesab edilmişdir.

Bildiyiniz kimi, Abşeron göllərinin bərpası layihəsi çərçivəsində yarımadanın ən böyük gölü olan Böyükşor gölünün kompleks bərpası layihəsinin birinci mərhələsində gölün 300 hektara yaxın sahəsi bərpa edilmiş, Böyükşor bulvarı salınmış, sahil ərazilər abadlaşdırılaraq yaşıllaşdırılmış, suyun keyfiyyətinə online rejimdə nəzarət təşkil edilmişdir.

Hazırda Abşeron yarımadasında çirklənmiş torpaqların inventarlaşdırılması və qiymətləndirilməsi məqsədilə müvafiq tədbirlər həyata keçirilir. Qiymətləndirmədən sonra təmizlənmə və bərpa metodologiyaları müəyyənləşdiriləcək, çirklənmiş ərazilər torpaqların gələcək istifadə təyinatına uyğun olaraq mərhələlərlə bərpa ediləcək.

Su hövzələrinin çirkləndirilməsi ölkənin və yarımadanın əsas ekoloji problemlərindəndir. Kanalizasiya sistemlərinin və müvafiq təmizləyici qurğuların qurulması hesabına su mənbələrinin çirklənməsinin qarşısı alınmalıdır.

Azərbaycan Respublikası BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Paris Sazişini 2016-cı ilin oktyabrında ratifikasiya edərək 2030-cu ilədək istilik effekti yaradan qazların emissiyalarının səviyyəsində 35% azalmanı hədəf kimi götürüb. Bu öhdəliyi yerinə yetirmək üçün ətraf mühitə dost texnologiyalar tətbiq etməklə infrastruktur layihələri icra olunmalı, tükənməyən enerji mənbələrindən istifadə, enerji səmərəliliyinin artırılması və digər istiqamətlərdə müvafiq layihələr həyata keçirilməlidir.

Digər ölkələrdə olduğu kimi, Azərbaycanda da iqlim dəyişmələrinin fəsadları müşahidə olunmaqdadır və təhlükəli hidrometeoroloji hadisələrin sayında, intensivliyində artım tendensiyası izlənilir. Bu sahədə ölkədə erkən xəbərdarlıq sisteminin təkmilləşdirilməsi, dəniz hidrometeoroloji şəbəkəsinin avtomatlaşdırılması, yeni proqnoz modellərinin tətbiqi ilə hidrometeoroloji xidmət sahəsinin modernləşdirilməsi nəzərdə tutulub.

Havanın çirklənməsi məsələlərinə də böyük diqqət göstərilir. Qeyd etmək lazımdır ki, yeni yaradılan müəssisələrdə ekoloji tələblərə cavab verən müasir texnologiyaların tətbiqi ətraf mühitin qorunmasında mühüm rol oynayır. Həyata keçirilmiş tədbirlər xüsusən Bakı və Sumqayıt kimi iri şəhərlərin ekoloji vəziyyətinin yaxşılaşdırılması istiqamətində öz töhfəsini vermişdir.

Bu gün ölkəmizdə atmosfer havasının keyfiyyətinə təsir edən digər əsas amillər təsərrüfat fəaliyyəti zamanı ekoloji norma və standartlara riayət olunmamasıdır. Ümumiyyətlə, havanı çirkləndirən amillərə qarşı ciddi mübarizə aparılması qarşıya mühüm vəzifə kimi qoyulub. Havanın çirklənməsinin 70%-dən çoxu avtonəqliyyatın payına düşür. Heydər Əliyev adına Neft Emalı Zavodunda aparılan yenidənqurma və modernizasiya işləri paytaxtın ekoloji mühitinin yaxşılaşdırılmasına müsbət təsir edəcəkdir. Bu layihənin reallaşdırılması nəticəsində, o cümlədən "AVRO-5" standartlarına uyğun yanacaq istehsalı atmosferə atılmaların kifayət qədər azalmasına şərait yaradacaqdır.

Təsərrüfat obyektlərində müvafiq avadanlıqların qurulması da ciddi nəzarətə götürülmüşdür. Atmosfer havasına atılan tullantıların qarşısının alınması istiqamətində maarifləndirmə, təşviqat və inzibati tədbirlər həyata keçirilir. Ölkə ərazisində fəaliyyət göstərən ictimai iaşə obyektlərində də monitorinq və araşdırmalar aparılıb, proses bu gün də davam etdirilir.

***- Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin azaldılmasına dair 2019-2020-ci illər üçün Tədbirlər Planı" ilə bağlı nə kimi addımlar atılır?***

-Hazırda qlobal səviyyədə ətraf mühiti çirkləndirən əsas faktorlardan biri də plastik tullantılarıdır. Heç kəsə sirr deyil ki, plastik tullantılar təbiətdə yüz illər ərzində parçalanmır, miqdarı isə ilbəil artır. Araşdırmalar göstərir ki, bu tullantılar düzgün idarə olunmadığından ətraf mühiti və sututarları çirkləndirir, kənd təsərrüfatı torpaqlarının dərin qatlarına keçərək bitkilərin normal inkişafını ləngidir və məhsuldarlığın aşağı düşməsinə səbəb olur.

Hazırda bir çox inkişaf etmiş ölkələrdə plastik qablaşdırıcılardan istifadənin azaldılması istiqamətində müvafiq qanunvericilik bazası yaradılır, onların toplanması və təkrar emalı sistemi təkmilləşdirilir. Avropa ölkələrinin bir çoxunda əsas tədbir kimi plastik torbaların ödənişli olması və ya onlara ekoloji vergi tətbiqi kimi üsullardan istifadə edilir. Bununla yanaşı, dəfələrlə istifadə oluna bilən parça torbalardan, bakteriyaların və ya digər canlı orqanizmlərin parçalaya biləcəyi çantalardan istifadənin təşviqi də görülən tədbirlər sırasındadır. Ümumilikdə isə, 40 ölkədə plastik məhsulların istifadəsi məhdudlaşdırılıb.

Ölkə rəhbəri tərəfindən verilmiş Sərəncam bu kimi məsələlərin həllində əhəmiyyətli rol oynadı. Tədbirlər Planı 2020-ci ilədək strateji baxışı, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışını əhatə edir. Tədbirlər Planında plastik qablaşdırma materiallarının ətraf mühitə mənfi təsirinin azaldılması və onların alternativlərinin ölkə bazarına daxil olmasının asanlaşdırılması üçün stimullaşdırıcı tədbirlər nəzərdə tutulub.

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2017-ci ildə Azərbaycanda istehsal olunan plastik qablaşdırma məhsullarının həcmi 2010-cu illə müqayisədə təqribən 2,5 dəfə artıb, eyni zamanda, 2009-cu illə müqayisədə 5 dəfə çox plastik qablaşdırıcı idxal edilib. Ölkədə hər il orta hesabla adambaşına 24 kiloqram plastik tullantı yaranır.

Plastik və polietilen qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin azaldılması istiqamətində başladığımız genişmiqyaslı kampaniya bu gün də davam edir.Alternativ qablaşdırma materiallarından istifadənin genişləndirilməsi məqsədilə təbliğat işləri davam etdirilir.

Tullantıların idarə olunması bütün ölkələrə xas olan problemdir və iqtisadi inkişaf dövrünü yaşayan ölkəmizdə də özünü göstərir.Balaxanı poliqonunun müasir standartlara uyğun yenidən qurulması, Bərk Məişət Tullantılarının Yandırılması və Çeşidlənməsi zavodlarının istismara verilməsi, Təhlükəli Tullantılar Poliqonunun yaradılması, poliqonların əksəriyyətinin tam bərpa olunması və çoxsaylı qeyri-qanuni tullantı sahələrinin təmizlənməsi hesabına Bakıda köklü müsbət dəyişikliklər hiss olunur.

Lakin digər ərazilərdə, xüsusilə də iri yaşayış məntəqələrində məişət tullantılarının daşınması və yerləşdirilməsi narahatlıq doğurur.

***-Bəs respublikamızda su ehtiyatlarının idarə edilməsi ilə bağlı durum hansı səviyyədədir?***

-Su ehtiyatları istənilən dövlət üçün ən qiymətli resurslardan biridir. Əhalinin artımı və iqtisadiyyatın inkişafı şəraitində dünyada su ehtiyatlarından istifadə sürətlə artır və əksər region və ölkələrdə su təminatı kəskin şəkildə pisləşir.

BMT-nin 2018-ci ildə nəşr olunmuş Dünya Su İnkişafı Hesabatına əsasən iqtisadiyyatın inkişafı və əhalinin artması səbəbindən suya olan tələbat hər il təqribən 1% artır və bu əsasən inkişaf etməkdə olan ölkələrdə daha çox özünü biruzə verir. Hazırda dünya əhalisinin 40%-dən çoxu su qıtlığı problemindən əziyyət çəkir və iqlim dəyişikliyi nəticəsində 2050-ci ilə qədər bu rəqəmin artacağı proqnozlaşdırılır.

Ölkəmizə gəlincə, araşdırmalara görə Cənubi Qafqazın ümumi su ehtiyatının yalnız 10 faizi Azərbaycanın payına düşür. Ölkənin su ehtiyatlarının təqribən 70%-i qonşu dövlətlərin ərazisində formalaşır və Azərbaycan üçün regional su resurslarının dövlətlərarası ədalətli bölünməsi məsələsi xüsusi əhəmiyyət kəsb edir. Respublikanın ərazisinin 3/4 hissəsi ölkənin ən böyük su arteriyası olan Kür çayı hövzəsinin aşağı relyefində yerləşdiyindən, çayın qonşu dövlətlərin ərazilərində çirklənməsi ekoloji gərginlik yaradır.

Dinamik iqtisadi inkişafla əlaqədar ölkədə kifayət qədər iri su istifadəçiləri yaranmışdır ki, onların da fəaliyyət sahəsində içməli sudan təyinatına uyğun olmayaraq səmərəsiz istifadə və israfçılıq hallarına yol verilir. İçməli su təchizatı sisteminin təkmilləşdirilməsi və suvarma kanallarının rekonstruksiyası istiqamətində aparılan genişmiqyaslı işlərə baxmayaraq hələ də bu sahədə çox böyük miqdarda su itkisi mövcuddur. Belə ki, təbii mənbələrdən götürülən suyun istehlakçıya çatdırılması prosesində böyük itkiyə yol verilir ki, bu da az su ehtiyatlarına malik olan ölkəmiz üçün böyük rəqəm hesab olunur.

Hazırda ölkəmizdə su qıtlığının qarşısının alınması məqsədi ilə yeni alternativ su mənbələrinin yaradılması istiqamətində müvafiq işlər həyata keçirilir. Su istehlakçılarının tələbatının tam ödənilməsi məqsədilə əlavə müxtəlif tutumlu yeni su anbarlarının yaradılması ölkənin su təhlükəsizliyində mühüm rol oynaya bilər. Yaxın gələcəkdə alternativ su mənbələrinin axtarışı, yağış sularından istifadə olunması, dəniz suyunun duzsuzlaşdırılması, sudan təkrar istifadə kimi amillər də nəzərə alınmalıdır.

***-Muxtar müəllim, hazırda Xəzər dənizinin ekoloji vəziyyəti də aktual məsələlərdən biridir. Xəzərin ekoloji vəziyyətinin çirklənməsinin qarşısının alınması üçün hansı tədbirlər həyata keçirilir?***

-Bu gün Nazirliyin fəaliyyət hədəflərindən biri Xəzər dənizinin çirklənməsinin qarşısını almağa yönəlib. Mümkün olan bütün vasitələrdən istifadə olunur ki, Xəzər ekoloji inkişaf və ekoloji sabitlik zonasına çevrilsin.

Lakin əfsuslar olsun ki, antropogen və təbii amillərin təsiri (qlobal iqlim dəyişiklikləri, dəniz səviyyəsinin tərəddüdü, çay axınının həddən artıq tənzimlənməsi, çirklənmə, qanunsuz balıq ovu və s.) Xəzər dənizi ekosisteminin deqradasiyasına gətirib çıxarmışdır. Bu gün Xəzər dənizinin ekosisteminə mənfi təsir aradan qaldırılmasa, gələcəkdə ağır nəticələrə gətirib çıxarar.

Xəzər dənizinin əsas çirklənmə mənbələri onun hövzəsində, sahillərində və akvatoriyasında yerləşən şəhərlərin və sənaye obyektlərinin çirkab suları, dəniz nəqliyyatından və neft mədənlərindən daxil olan müxtəlif çirkləndiricilərdir.

Dənizi Azərbaycan sektorunda və onun şimaldan-cənubadək sahil zolağında, o cümlədən, çimərlik ərazilərində, eləcə də, dənizdə fəaliyyət göstərən müəssisə və obyektlərdə, üzən vasitələrdə və s. monitorinqlər keçirilmiş və dənizə olan axarlar müəyyən edilərək xəritələşdirilmişdir. Etiraf etmək lazımdır ki, sahil zolağında yerləşən rayonların əksəriyyətində təmizləyici qurğular olmadığından müxtəlif tərkibli tullantı suları təmizlənmədən Xəzərə axıdılır.

Xəzər dənizinin su balansında əsas rolu dənizə tökülən 130-a qədər çay təşkil edir. Dənizin qidalanmasında Volqa çayının xüsusi əhəmiyyəti olsa da, bu gün Xəzər akvatoriyasını ən çox Volqa çirkləndirir.

Bu su hövzəsinin qorunması ilə bağlı regional və beynəlxalq səviyyədə üzərimizə götürdüyümüz öhdəliklər, tərəfdaş olduğumuz konvensiyaların müddəaları da bu sahəni daim diqqət mərkəzində saxlamağı bizdən tələb edir. Ötən ilin avqust ayında Qazaxıstanın Aktau şəhərində keçirilmiş Xəzəryanı ölkələrin dövlət başçılarının Beşinci Zirvə toplantısında "Xəzər dənizinin hüquqi statusuna dair Konvensiya"nın imzalanması ilə regionda əməkdaşlığa yeni zəmin yaranmışdır.

***-Bu gün respublikamızın ərazisində ya-***

# Ekoloji problemin həlli və ətraf mühitin qorunması hər bir insanın mənəvi borcudur

*Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevin yap.org.az-a müsahibəsi*

***şıllaşdırma işləri də böyük vüsət alıb. Bu barədə nə deyə bilərsiniz?***

-Bildiyiniz kimi, Abşeron yarımadasının iqlimini nəzərə alaraq, onun arid sahələr və aşağı keyfiyyətli torpaqlarla səciyyələnən ərazilərində yaşıllaşdırma işlərinin aparılması ümumi ekoloji vəziyyətin yaxşılaşdırılmasında, eyni zamanda iqlim dəyişmələri ilə bağlı təsirlərin minimuma endirilməsində effektiv bir vasitədir.

Əsas prioritet istiqamətlərimizdən biri də meşələrin artırılması və bərpası, o cümlədən meşələrdən davamlı istifadə edilməsidir. Azərbaycan az meşəli ölkədir. Meşələrin qanunsuz qırılması və digər dağıdıcı müdaxilələrin qarşısının alınması, meşələrin qorunması və mühafizəsinin gücləndirilməsi istiqamətində işlər davam etdirilir.

Hazırda "Azərkosmos" ASC və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) ilə birgə meşə ilə örtülü ərazilərindəqiqləşdirilməsi məqsədilə inventarlaşma işləri aparılır. Bu işlərdə Nazirliyin nəzdində fəaliyyət göstərən geodeziya və kartoqrafiya xidmətinin imkanlarından da geniş istifadə edilir.

Bundan əlavə meşə idarəetmə sisteminin müasirləşdirilməsi, meşə ekosisteminin qorunub saxlanılması, yeni meşə sahələrinin salınması və meşə təsərrüfatından beynəlxalq təcrübələr əsasında davamlı istifadə edilməsi məqsədilə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) texniki dəstəyi ilə Yeni Milli Meşə Proqramının hazırlıq işlərinə başlanılıb və Proqramın ilkin layihəsi tamamlanıb. Azərbaycan Respublikasının Milli Meşə Proqramı 2020-2030-cu illəri əhatə edən 10 illik müddət üçün nəzərdə tutulub.

***-Mayın 10-da Ulu Öndər Heydər Əliyevin doğum gününə həsr olunan ağacəkmə kampaniyasında Prezidenti İlham Əliyev və ailə üzvləri də iştirak etdi...***

-Bəli, mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Zığ dairəsi-Heydər Əliyev Beynəlxalq Aeroportu avtomobil yolunun 28-ci kilometrliyində salınan yaşıllıq sahəsində Ulu Öndər Heydər Əliyevin doğum gününə həsr olunan ağacəkmə kampaniyasında iştirak ediblər.

Ağacəkmə kampaniyası zamanı "Keçmiş yod-brom zavodunun çirklənmiş ərazilərinin təmizlənməsi" və "Heydər Əliyev Beynəlxalq Aeroportunun yaxınlığındakı çirklənmiş ərazilərin təmizlənməsi" layihələri barədə Prezident İlham Əliyevə məlumat verilib. Suraxanı rayonunda keçmiş yod-brom zavodunun ərazisində lay suları, duz, yod və digər tullantılarla çirklənmiş 67 hektar sahənin təmizlənərək bərpa edilməsi, kollektor-drenaj sisteminin qurulması işləri uğurla icra olunub. Ümumilikdə, indiyədək bu ərazidə yerli iqlim şəraitinə uyğun 50 mindən çox müxtəlif növ ağac əkilərək böyük yaşıllıq zolağı salınıb.

Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə keçirilən ağacəkmə aksiyasında 4 hektar ərazidə, ümumilikdə, 3250 ağac əkildi. Ağaclar əraziyə çəkilmiş müasir, avtomatlaşdırılmış damcılı suvarma sistemi vasitəsilə suvarılır. Suvarma üçün su isə Hövsan Aerasiya Stansiyasından götürülür və təmizləyici qurğularda təmizləndikdən sonra suvarmaya ötürülür. Damcılı suvarma sisteminin elektrik enerjisi ilə təchizatı Suraxanı Günəş Elektrik Stansiyası hesabına təmin ediləcək.

Azərbaycan dövləti ekologiyanın və ətraf mühitin mühafizəsi məsələsinə həmişə xüsusi diqqətlə yanaşır. Ölkəmizin zəngin flora və faunasının qorunması, ekoloji durumun daha da yaxşılaşdırılması, Bakının yaşıllıqlar şəhərinə çevrilməsi istiqamətində ulu öndər Heydər Əliyev bütün dövrlərdə çox böyük işlər görüb. Ümummilli Liderin əsasını qoyduğu ənənə bu gün Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilir.

Birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da ölkəmizdə yeni yaşıllıqların salınmasına və mövcud yaşıllıq sahələrinin qorunmasına xüsusi diqqət yetirir. Bu məsələdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə həyata keçirilən layihələrin də mühüm rolu var.

Müxtəlif vaxtlarda icra olunan ekoloji layihələr Azərbaycanın bütün regionlarını əhatə etməklə, ümumilikdə ölkəmizin ekoloji vəziyyətinin sağlamlaşdırılmasına böyük töhfələr verir.

Bu gün Azərbaycanın hər yerində vətəndaşların iştirakı ilə ağacəkmə aksiyaları keçirilir. Bu işlərin görülməsində, yaşıllıqların salınmasında, şəhərlərimizdə və rayonlarımızda təmizlik işlərində hər bir sakin fəal iştirakı ilə seçilir. Təsadüfi deyil ki, hazırda Azərbaycanda ekologiyanın qorunması, əhalinin sağlamlığının təmin edilməsi istiqamətində görülən işlər bir çox ölkələrə nümunədir.

***-Respublika ərazisindəki mövcud mineral xammal bazası və ondan səmərəli istifadə ilə də bağlı hazırda hansı işlər aparılır?***

-Azərbaycan Respublikası çox əlverişli təbii şəraitə və zəngin təbii ehtiyatlara malik ölkədir. Aparılmış geoloji-kəşfiyyat işləri nəticəsində ölkənin bir sıra bölgələrində müxtəlif növ qeyri-filiz faydalı-qazıntı və tikinti-inşaat materialları yataqları aşkar edilmişdir. Onlardan səmərəli şəkildə istifadə olunması iqtisadiyyatın, o cümlədən sənayenin inkişafında mühüm rol oynayacaqdır.

Dövlət Balansında qeydiyyata alınmış, sənayenin müxtəlif sahələrində istifadə oluna bilən faydalı qazıntı ehtiyatları istismara cəlb edilməmişdir. Bu yataqlara misal olaraq seolit, kükürd, barit, gips, anhidrid, gəc, keramika xammalı, dolomit, bentonit gilləri, kvarsit, mineral boyalar, flyus və soda üçün əhəngdaşı xammalı, şüşə xammalı, selitra, karbonat xammalı, əlvan daşlar, kaolin gilləri və s. göstərmək olar.

Sadalanan mineral xammal ehtiyatları qeyri-neft sektorunun inkişafında sənayenin müxtəlif sahələrində - metallurgiya, kimya, neft, neft-kimya, sement istehsalı, tibb, zərgərlik, tikinti, şüşə istehsalı, yol və inşaat işlərində geniş tətbiq oluna bilər.

Filiz yataqlarının öyrənilməsi istiqamətində "AzerGold" QSC ilə birgə ölkənin ən böyük qızıl yatağı kimi proqnozlaşdırılan Tülallar sahəsində tədqiqat işləri davam etdirilir və bütün filiz yataqları haqqında məlumatlar rəqəmsallaşdırılır.

Əsas prioritet məsələlərdən başlıcası ehtiyatlar balansında qeydiyyata alınmış mineral xammal yataqlarının istismara cəlb olunması və qeyri-neft sektorunun inkişafının sürətləndirilməsindən ibarətdir.

***-Ekologiya və Təbii Sərvətlər Nazirliyinin beynəlxalq əlaqələri haqqında da məlumat verməyinizi xahiş edirik...***

-Azərbaycan Cənubi Qafqazda, Mərkəzi Asiya və Qərbi Asiya ölkələrini birləşdirən əhəmiyyətli yolayrıcında yerləşir. Bu baxımdan ölkənin ətraf mühitin qorunması sahəsində beynəlxalq əməkdaşlığına onun mürəkkəb geosiyasi vəziyyəti təsir edir.

Ətraf mühit problemlərinin ümumbəşəri bir problem olduğunu nəzərə alaraq, dünyanın heç bir ölkəsi ətraf mühitin mühafizəsi problemlərini təklikdə həll etmək iqtidarında deyil. Bu məqsədlə ölkəmiz üçün ətraf mühitin mühafizəsi sahəsində digər ölkələr və təşkilatlarla razılaşma və sazişlərin imzalanması, beynəlxalq konvensiyalara qoşulma vacib məsələlərdəndir. Azərbaycan 20-dən çox beynəlxalq konvensiya və protokollara qoşulub. Bu istiqamətdə fəaliyyət bu gün də davam etdirilir və qlobal məqsədlərə xidmət edən digər beynəlxalq çoxtərəfli müqavilələrə qoşulma istiqamətində müvafiq işlər aparılır. 40-a yaxın ölkə ilə ikitərəfli müqavilələr imzalanıb.

Xarici siyasətimizin prioritet istiqamətlərindən olan Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Ermənistanın işğalçı siyasətinin ifşası, münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması xarici dövlətlərlə həm ikitərəfli, həm də çoxtərəfli formatda həyata keçirilən əməkdaşlıq zamanı gündəlikdə duran əsas məsələdir.

***-Bildiyimiz kimi, ölkəmizdə bir sıra qoruq və milli parklar fəaliyyət göstərir. Burada ekoturizmin inkişafı ilə əlaqədar hansı perspektivlər mövcuddur?***

-Azərbaycan Respublikası Qafqaz ölkələri və bütövlükdə Avropa üzrə zəngin biomüxtəlifliyə malik olan ölkələrdəndir. Bu baxımdan ölkəmizdə biomüxtəlifliyin qorunması həm milli və regional, həm də qlobal əhəmiyyətə malikdir. Hazırda xüsusi mühafizə olunan təbiət ərazilərinin sahəsi ölkə ərazisinin 10,3 %-nə çatdırılıb. Ölkədə 10 milli park, 11 dövlət təbiət qoruğu və 24 dövlət təbiət yasaqlığı fəaliyyət göstərir. "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə dair 2017-2020-ci illər üzrə Milli Strategiya" çərçivəsində Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 2018-ci ildə Qızılağac Dövlət Təbiət Qoruğunun bazasında Qızılağac Milli Parkı yaradılıb. Bu ildən etibarən Almaniya İnkişaf Bankının maliyyə dəstəyi ilə Zaqatala-Balakən regionunda ölkə tarixində ilk biosfer qoruğunun yaradılması işlərinə başlanılacaqdır.

Ölkəmizdə hazırki və növbəti illər üçün prioritetlərdən biri ətraf mühitin mühafizəsi və yerli əhalinin rifah halını yaxşılaşdırmaq, onun tələblərini qarşılamaq üçün potensiala malik olan davamlı ekoturizmin inkişaf etdirilməsidir.

Ekoloji turizm - dünya turizm sənayesinin ən sürətli inkişaf edən sahələrindən biridir. Ekoloji turizm istirahət məqsədi ilə istifadənin yeni forması olmaqla yanaşı, təbiətdən zövq almaq, rekreasiya ehtiyatlarından düşünülmüş şəkildə istifadə etməyi, bioloji müxtəlifliyin qorunmasını təbliğ etməklə, həm də turizm fəaliyyətinin dayanıqlılığını tələb edir. Ekoturizmin inkişaf etdirilməsi üçün Dövlət Turizm Agentliyi ilə birlikdə beynəlxalq ekspertlərin dəstəyi ilə yeni ekoturizm konsepsiyası hazırlanır.

Bu istiqamətdə xanım Leyla Əliyevanın təsisçisi olduğu IDEA İctimai Birliyinin fəaliyyətini xüsusi vurğulamaq istərdim. IDEA İctimai Birliyinin bu istiqamətdə gördüyü işləri, xüsusilə də ətraf mühitin mühafizəsi işinə gənclərin cəlb olunmalarını yüksək qiymətləndiririk.

İDEA İctimai Birliyi ilə birgə nadir və nəsli kəsilmək təhlükəsində olan bioloji növlərin artırılması, onların tarixən məskunlaşdıqları ərazilərə reintroduksiya olunması sahəsində aparılan işlər bu gün də davam edir. Belə ki, nəsli kəsilmiş zubrların (avropa bizonu) bərpası və onların ölkə təbiətinə reintroduksiya olunması, digər növ vəhşi heyvanların elmi məqsədlərlə artırılması və çoxaldılıb təbiətə buraxılması üçün Şahdağ Milli Parkının ərazisində volyer kompleksi inşa edilib. 2019-cu ilin may ayında ölkəyə bizonların introduksiya olunması və bir ay müddətində qapalı volyer şəraitində saxlanıldıqdan sonra Ekologiya və Təbii Sərvətlər Nazirliyi və İDEA İctimai Birliyinin birgə təqdimatı ilə təbiətə buraxılması planlaşdırılır.

Bildiyiniz kimi, IDEA-nın təşəbbüsü ilə Azərbaycanın təbiət gözəlliklərini ölkə daxilində və xaricdə təbliğ etmək, eləcə də ətraf mühitin mühafizəsinin vacibliyini diqqətə çatdırmaq məqsədilə milli parklarla bağlı sənədli filmlər silsiləsi də yaradılır. Sözügedən layihə çərçivəsində 2014-cü ildə "Şirvan Milli Parkı", 2015-ci ildə "Quşlar cənnəti - Ağgöl Milli Parkı" və "Göygöl Milli Parkı", 2017-ci ildə "Azərbaycan. Ceyranların xilası", ötən il isə "Abşeron Milli Parkı" sənədli filmləri geniş ictimaiyyətə təqdim olunub. Layihə çərçivəsində ölkəmizin bütün milli parkları haqqında sənədli filmin hazırlanması nəzərdə tutulur. Bu yaxınlarda "Şahdağ. Dağların şahı" sənədli filminin təqdimat mərasimi keçirildi və Qızılağac Milli Parkından bəhs edən və hazırda çəkilişləri davam edən yeni filmdən kadrlar göstərildi və geniş auditoriya tərəfindən böyük maraqla qarşılandı.

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın tapşırıqları və dəstəyi ilə reallaşdırılan layihələr də ölkəmizdə ətraf mühitin mühafizəsinə mühüm töhfələr verməkdədir.

Azərbaycan Respublikasının geoloji, coğrafi, tarixi, estetik və digər əhəmiyyət daşıyan təbiət obyektlərinin qorunması istiqamətində YUNESKO ilə əməkdaşlıq genişləndirilir. Hirkan meşələrinin YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi ilə bağlı işlər aparılır.

YUNESKO-nun Qlobal Geoparklar təşəbbüsü çərçivəsində Bakı və Abşeron yarımadasının Palçıq vulkanları qrupu Dövlət Təbiət Qoruğu ərazisinin beynəlxalq geoloji əhəmiyyətə malik ərazi kimi müəyyən edilməsi ilə bağlı tədbirlər həyata keçirilir.Bu günlərdə "geoparkların yaradılmasına dair"qanunvericiliyə edilmiş dəyişikliklər bu işlərin reallaşdırılması üçün imkanlar yaradır.

***- Sizcə, ətraf mühitin qorunmasını təmin etmək üçün ictimai nəzarət hansı səviyyədədir?***

-Əlbəttə, dövlət qurumları ilə yanaşı, ətraf mühitin qorunmasını təmin etmək üçün ictimai nəzarət daha da artırılmalıdır. Ekoloji problemin həlli və ətraf mühitin qorunması hər bir insanın mənəvi borcudur. Bu gün ekoloji problemlərin həlli bəşəriyyətin, böyükdən kiçiyə qədər hər kəsin bu işə cəlb olunmasını tələb edir. Heç kimin bu problemdən kənarda qalmağa mənəvi haqqı yoxdur.Nazirliyin ətraf mühitin mühafizəsi sahəsindəki çoxsahəli fəaliyyətində ictimaiyyətin məlumatlandırılması və maarifləndirilməsi işi prioritet istiqamətlərdən biridir.

Belə ki, ətraf mühitin vəziyyəti və bu sahədə olan problemlərin aradan qaldırılmasında ictimaiyyətin iştirakının təmin edilməsi məqsədilə müxtəlif mövzularda ekoloji təbliğat xarakterli görüşlər keçirilir, kütləvi informasiya vasitələrində çıxışlar təşkil edilir. Beynəlxalq ekoloji təqvim günlərində də ekoloji təbliğat xarakterli tədbirlər həyata keçirilir.

Hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini, ilk növbədə, gənc nəslə bağlayır. Bu baxımdan gənclərin nazirliyin fəaliyyətində fəal iştiraka cəlb olunmasına, onların istək, rəy və təkliflərinə böyük önəm verilir.

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 sentyabr tarixli 3236 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə "Dövlət Proqramı"na və dövlət başçısının 2019-cu il fevralın 1-də Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısındakı çıxışına əsaslanaraq gənclərdən ibarət "Təbiəti könüllü qoruyaq" adlı könüllülər qrupu yaradılmışdır. Bu günə kimi, artıq 500-ə yaxın könüllü gənc müraciət etmişdir. Könüllülük fəaliyyətinə qoşulan gənclər ətraf mühit və təbii sərvətlərin qorunması istiqamətində təbliğat və maarifləndirmə işləri və əmək vərdişləri aşılayan təlimlərdə iştirak edəcək və seçilənlərə xüsusi sertifikatlar veriləcək. Seçilmiş namizədlərdən gələcəkdə Nazirliyin ehtiyat kadr heyətinin formalaşdırılması nəzərdə tutulur ki, bu da gənclərin iş həyatına uğurlu bir keçid fürsəti yaradacaqdır. Biz hər bir kəsi laqeyd olmamağa, təbiəti sevməyə və qorumağa çağırırıq.

# Dahi şəxsiyyət Heydər Əliyevlə görüşlərim

***Xalqımızın Ümummilli Lideri Heydər Əliyev mədəniyyət, incəsənət adamlarının, jurnalistlərin, bir sözlə, yaradıcı insanların əsl himayədarı idi. Belə şəxslərin yaradıcılıq sahələrində böyük uğurlar qazanmalarına, əməklərinin qiymətləndirilməsinə diqqət və qayğı göstərirdi. Onlarla görüşəndə, səmimi söhbət edir, dəyərli məsləhətlər verir, tövsiyələrini bildirirdi. Mən də Ulu Öndərin bu yüksək insani keyfiyyətlərinin- səmimilik və mehribanlığının şahidi olmuşam.***



Dahi şəxsiyyət Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi işləyərkən, 1980-ci ildə Naxçıvan Muxtar Respublikasına səfər etmişdi. O, üzüm bağlarına baxdı, Arpaçay dəryaçasının tikintisi ilə maraqlandı. Şərur rayonunun ictimaiyyəti ilə görüşdü. Naxçıvan şəhərinin sənaye müəssisələrində, tikinti obyektlərində olub, əmək adamlarının iş və məişət şəraiti ilə maraqlandı. Babək, Ordubad, Culfa və Şahbuz rayonlarının zəhmət adamları ilə görüşüb, onları dinləyərək, qaldırdıqları məsələlərin həlli ilə bağlı tapşırıqlar verdi. Bütün bu görüşlərdə iştirak etmək, onun olduğu şəhər və kəndlərdə sosial-iqtisadi və digər məsələlərlə əlaqədar verdiyi tövsiyə və tapşırıqları muxtar respublikanın televiziya və radiosunda işıqlandırmaq mənə nəsib oldu. Ulu Öndər həmin səfərlərdə olanda, Naxçıvanda qonaq evində qalmışdı. Onun səfəri barədə televiziyanın "Xəbərlər" proqramında verilən süjetlərə baxıb və məmnun olduğunu bildirmişdi. O vaxt Naxçıvan MR-də Vilayət Partiya Komitəsinin birinci katibi işləyən K.Rəhimovu mənim əməyimi qiymətləndirməyi tapşırmışdı. Odur ki, mənə "Əməkdar Jurnalist" fəxri adı verildi.

Dahi insan 1990-cı ildə Bakıdan Naxçıvana - doğma yurduna qayıtmışdı, bacısı qızı Sənifə xanımın evində qalırdı. Naxçıvanda yaşayan jurnalistlərdən, ilk dəfə olaraq, Ulu Öndərdən müsahibə almaq üçün qaldığı evə getdim. Məqsədimi Ona bildirdilər. Çox çəkmədi ki, birmərtəbəli evin aynabəndinə gəldi. Biz Onu burada gözləyirdik. Bizimlə səmimi görüşdü, müsahibə verməyə hazır olduğunu bildirdi. Mən dahi şəxsiyyətə Naxçıvana gəlməsinin, burada yaşamasının səbəbi barədə suallar verdim. Bildirdi ki, Naxçıvan əhalisi blokada şəraitində yaşayır, çox çətinliklərlə üzləşib. Respublikamızın rəhbərliyi naxçıvanlılara lazımi köməklik etmir, çətinliklərin aradan qaldırılması üçün lazımi tədbirlər görülmür. Naxçıvanı bu ağır vəziyyətdən xilas etmək vacibdir. Sonra O, televiziyanın tamaşaçılarına ürək sözlərini bildirdi.

Ulu Öndər Heydər Əliyev çox çəkmədi, muxtar respublikanın rayonlarında oldu. Culfa, Ordubad və Şahbuz rayonlarında ziyalılar və əmək adamları ilə görüşdü. Qeyd edim ki, bu görüşləri də, dahi insan Azərbaycan KP MK-nın birinci katibi işləyəndə, rayon mərkəzlərində keçirdiyi görüşlər kimi, çox yüksək səviyyədə keçirdi. Həmin görüşlərin mətnində qeyd etdim ki, xalqın vətənpərvər oğluna tükənməz məhəbbəti heç vaxt azalmır. Dahi şəxsiyyətin nəcib və xeyirxah əməlləri insanların qəlbində əbədi yaşayır.

Emənilər Sədərək kəndini tez-tez atəşə tuturdular. Həmin görüşlərdə neçə-neçə mərd oğul şəhid olmuşdu. Ulu Öndərin müdrikliyi nəticəsində, Sədərək kəndi düşməndən qorundu. O, bir neçə dəfə Sədərəkdə oldu, əhali ilə görüşdü, onlara erməni işğalçılarından heç vaxt qorxmamağı tövsiyə etdi. Odur ki, heç bir sədərəkli doğma yurd yerindən qaçqın düşmədi. Dahi insanın Sədərək kəndində əhali ilə görüşlərini, Türkiyə ilə Sədərəyi birləşdirən "Ümid" körpüsünün açılışında iştirakını əks etdirən televiziya sujeti və radio mətni mənim tərəfimdən işıqlandırıldı.

Dahi dövlət və siyasi xadim Heydər Əliyevin Babək rayonunun Nehrəm kəndindən Azərbaycan Respublikası Ali Sovetinə, Naxçıvan şəhərindən isə muxtar respublika Ali Sovetinə deputatlığa namizədliyi irəli sürülmüşdü. Bunu nəzərə alaraq, Onun yaşadığı evə getdim, aynabəndə gəldi, mənimlə səmimi görüşdü. Ümummilli Lider Heydər Əliyevi televiziya studiyasında deputatlığa namizəd kimi çıxış etməyə dəvət etdim. Xahişimi qəbul edib, studiyaya gəldi və seçicilərinə müraciətlə çıxış etdi. Seçicilərə deputat kimi görəcəyi işlər, Naxçıvan əhalisinin çörək qıtlığından qurtarması, sərhədlərinin qorunması üçün həyata keçiriləcək tədbirlərdən bu diyardan milli ordu yaradılacağı barədə ətraflı məlumat verdi. Onun Nehrəm kəndinin, eləcə də, Naxçıvan şəhərinin seçiciləri ilə görüşləri barədə "Xəbərlər" proqramında sujetlər verilməsini təmin etdim.

Ulu Öndər Heydər Əliyev zəkasını, müdrikliyini, uzaqgörənliyini, təcrübəsini yüksək qiymətləndirən 91 nəfər elm xadimi və ziyalı Ulu Öndərə məktubla müraciət edərək, Ondan yeni partiya yaratmasını xahiş etmişdilər. 21 noyabr 1992-ci ildə Naxçıvan Dövlət Musiqili Dram Teatrında Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Mən bu konfrans barədə Naxçıvan Dövlət Televiziyasında, eləcə də, radioda məlumat verdim.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə Ali Məclisin sessiyaları keçirilirdi. Sessiya iclasları videoyazılara köçürülərək, televiziyanın efirinə verilirdi. Sessiyaların birində AXÇP-nin üzvü Həbib İsmayılov ayağa qalxıb, Ulu Öndərə dedi ki, Arif müəllimin tapşırığı ilə bəzi çıxışların videoyazısı aparılmır. Fasilədə Heydər Əliyev məni yanına çağırdı, videoyazının aparılmadığının səbəbini soruşdu. Mən texnikanın köhnə olduğunu və videolentin çatışmadığını bildirdim. Dedim ki, cəbhəçilər boşboğazlıq edir, onların çıxışları qısa yazılır, ən mühüm çıxışlar isə, bütövlükdə, lentə alınır. Mənim bu fikrimi bəyəndi. Hər sessiya başlamazdan əvvəl, məndən vəziyyətin necə olduğunu soruşurdu. Mən də bildirirdim ki, hər şey qaydasında gedəcək, sessiyanın iclası yazılıb efirə veriləcək. Deyə bilərəm ki, Ulu Öndərin Naxçıvanda yaşadığı və işlədiyi dövrdə keçirdiyi tədbirlər xarici ölkələrin nümayəndələrini qəbul etməsi, ziyalılar və sadə insanlarla görüşləri muxtar respublikanın televiziya və radiosunda ətraflı işıqlandırıldı. Bu sahədə mənim də əməyim olduğundan, qürur duyuram. Xalqımızın müdrik oğlu Heydər Əliyevin jurnalistlərin yaxın dostu olduğu üçün fəxr edirəm. Onunla bağlı dəyərli anları heç zaman unuda bilmirəm.

***Arif Həbibov,***
***Əməkdar jurnalist,***
***Naxçıvan şəhəri***

# Elçin Mirzəbəyli: Azərbaycan Prezidentinin siyasətinin əsasında insan amili dayanır



Beynəlxalq hüquq normalarının və mexanizmlərinin işləmədiyi, geosiyasi və geoiqtisadi maraqların bəşəri dəyərləri, humanizm prinsiplərini üstələdiyi bir zamanda dövlətlərin təhlükəsizliyi və inkişafı üçün əsas faktor daxili sabitliyin təmin olunması və qorunmasıdır. Bu baxımdan, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strateji hədəflər və Prezident İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində Azərbaycanda dayanıqlı sabitliyin təmin edilməsi və bunun siyasi, iqtisadi, sosial əsaslarının möhkəmləndirilməsi çox böyük tarixi uğurdur.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında siyasi ekspert Elçin Mirzəbəyli bildirib.

O qeyd edib ki, son 15 ildə dünyada baş verən proseslərə diqqət yetirsək, nə qədər ciddi kataklizmlərin baş verdiyinin şahidi olarıq. İqtisadi müharibələr, qlobal maliyyə böhranları, terrorizm, vətəndaş qarşıdurmaları, xarici müdaxilələr bu gün dünyanın bir sıra zəngin enerji ehtiyatlarına malik olan ölkələrini xəritədən silinmək təhlükəsi qarşısında qoyub. "Belə bir zaman kəsiyində, xüsusilə də Azərbaycan kimi həssas bir bölgədə yerləşən ölkələr üçün daxili sabitliyi təmin etmək, qlobal enerji və nəqliyyat layihələrini uğurla icra etmək və çeşidli diplomatik səylərlə ölkənin geosiyasi önəmini artırmaq olduqca dərin zəka, çevik və qətiyyətli iradə tələb edir. Bu gün keçdiyimiz yola, ətrafımızda baş verən hadisələrə, əldə etdiyimiz nəticələrə vahid analitik təhlil kontekstindən yanaşsaq, o zaman nə qədər böyük bir məsafə qət etdiyimizin şahidi olarıq. Ən önəmli məqamlardan biri də əldə olunan nəticələrlə kifayətlənməyərək, daim irəliyə baxmağımız, islahatlara, yeniliklərə açıq olmağımızdır", - deyə E.Mirzəbəyli bildirib.

Onun sözlərinə görə, bu gün ölkədə həyata keçirilən islahatların əsasında da vətəndaş məmnunluğunun artırılması, dövlət-vətəndaş münasibətlərinin möhkəmləndirilməsi, ölkəmizin iqtisadi potensialının artırılması, dövlət idarəçilik sisteminin modernləşdirilməsi dayanır ki, bütün bunlar da son nəticədə ölkənin sabit və dayanıqlı inkişafına xidmət edir.

Siyasi ekspert vurğulayıb ki, Azərbaycan Prezidentinin siyasətinin əsasında ölkə vətəndaşı, insan amili dayanır. Həyata keçirilən bütün islahatların, görülən işlərin məqsədi vətəndaşlarımızın daha təhlükəsiz, sosial baxımdan sığortalanmış, rahat və firavan həyatını təmin etməkdir. Azərbaycan vətəndaşları dövlət başçısının həyata keçirdiyi siyasəti aydın dərk edir, onunla həmrəylik nümayiş etdirir, ona güvənir və etimad göstərirlər.

# "Doing Business 2019" hesabatı ölkəmizdəki dərin islahatların göstəricisidir"



"Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycanın 190 ölkə arasında 25-ci yerdə qərarlaşması ölkəmizin böyük uğuru olmaqla yanaşı, son 2 ildə aparılan iqtisadi islahatların daha da dərinləşməsinin nəticəsidir". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Rüfət Quliyev deyib. O bildirib ki, ölkəmizin əldə etdiyi bu uğurların arxasında Prezident İlham Əliyev tərəfindən həyata keçirilən güclü siyasi iradəsi və davamlı dəstək dayanır: "Hesabatda nəzərdə tutulan elə meyarlar var ki, həmin meyarlara əsasən, ölkəmiz ilk 10 ölkə sırasına daxil olub".

R.Quliyev söyləyib ki, ölkəmizdə həyata keçirilən islahatların ən böyük göstəricisi nüfuzlu beynəlxalq reytinqlərlə yanaşı, "Doing Business 2019" hesabatının da bütün indikatorlarını əhatə etməsidir: "Aparılan islahatların yoxlanılması məqsədilə ölkələrə ayrı-ayrılıqda xüsusi ekspert missiyaları göndərilir, islahatların real praktikada tətbiqi yerində müvafiq meyarlarla araşdırılır. Nəticədə hər bir ölkənin həm ümumi, həm də 10 indikator üzrə xüsusi qiymət balı hesablanaraq mövqeləri müəyyən edilir. Bu, ölkəmizin beynəlxalq aləmdə yüksək nüfuza malik olduğunun göstəricisidir".

Deputat qeyd edib ki, hesabatda ölkəmizin 190 ölkə arasında 25-ci olması Azərbaycanın investisiya, biznes mühiti nöqteyi-nəzərindən cəlbedici ölkəyə çevrildiyini göstərir: "Kiçik və orta sahibkarlıqla məşğul olan şəxslər ölkəmizin bu uğurundan bəhrələnməyə çalışmalıdırlar. Dövlətimizdə sahibkarların fəaliyyəti üçün hər cür şərait yaradılıb. Bu baxımdan sahibkarlar işlərini daha aktiv qurmalı, məhsullarını xarici bazarlara çıxarmaqda maraqlı olmalıdırlar".

***Nailə Məhərrəmova***

GƏNCLİYİN SƏSİ

# Sağlam düşüncəyə malik Azərbaycan gəncliyi ölkə Prezidentinin ətrafında sıx birləşib



***"Bu gün hər bir Azərbaycan gənci belə güclü və qüdrətli dövlətin vətəndaşı olmağı ilə qürur duyur". Bu fikirləri "Səs" qəzetinə açıqlamasında Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatı gənclər birliyinin fəalı İsa Bayramov deyib. Onun sözlərinə görə, ölkəmizdə dövlət tərəfindən gənclərə böyük rəğbət göstərilir.***

Azərbaycan Prezidenti İlham Əliyevin gənclərə göstərdiyi diqqət və qayğını, son illərdə gənclərimizin müxtəlif sahələrdə qazandığı uğurları diqqətə çəkən İ.Bayramov Azərbaycan gəncinin ölkənin ictimai-siyasi həyatında həmişə fəal iştirak etdiyini vurğuladı: " Ulu Öndər Heydər Əliyevin ideyalarına sadiq olan Azərbaycan gəncləri Prezident İlham Əliyevin ətrafında sıx birləşərək, Vətənimizin tərəqqisi naminə var qüvvə ilə çalışırlar. Ulu Öndərin gənclərin imkan və bacarıqlarını hər zaman yüksək qiymətləndirdiyi və onların problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm verdiyini vurğulamaq istərdim. Azərbaycan Gənclərinin ilk Ümumrespublika Forumunun keçirilməsi, 2 fevralın Gənclər Günü elan edilməsi, dövlət proqramlarının qəbulu, "Dövlət - gənclər siyasəti haqqında" Fərman və geniş fəaliyyət proqramının təsdiq edilməsi Ulu Öndər Heydər Əliyevin gənclərə böyük diqqət və qayğısı idi. Bu, gənclərin respublikanın ictimai-siyasi həyatında daha fəal iştirakına şərait yaradır, habelə, dövlət orqanlarının diqqətini gəncliyin problemlərinin həllinə yönəldirdi".

Bu gün ölkəmizdə gənclər siyasəti keyfiyyətcə yeni mərhələsini yaşayır. Azərbaycan Prezidenti İlham Əliyev Ulu Öndərin gənclər siyasətinə sadiqliyini qərarları ilə təsdiq edir. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər, gənclər təşkilatlarının formalaşması və inkişafı üçün yaradılan şərait bu diqqətin nəticəsidir. İ.Bayramov Cənab Prezidentin gənclərin xaricdə təhsil almalarına dəstək verən "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil üzrə Dövlət Proqramı"nın bütün təbəqədən olan gənclərin xaricdə təhsilinə geniş imkanlar yaratdığını vurğuladı: "İndi bu proqram çərçivəsində minlərlə gənc dünyanın ən nüfuzlu təhsil ocaqlarında oxuyur. Onu da qeyd edim ki, dövlət başçısı ali məktəblərə yüksək bal toplayaraq, daxil olan gənclərə də xüsusi diqqətlə yanaşır. Bu qayğı onlarda milli mənlik və vətənpərvərlik hissinin yaranmasında, inkişafında və yüksək təhsilə yiyələnməsində önəmlidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ötən ilin 12 sentyabr tarixində 2018-2019-cu tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident Təqaüdünün verilməsi haqqında imzaladığı Sərəncam gənclərə göstərilən diqqətin daha bir nümunəsi idi. Bu gün hər bir Azərbaycan gənci belə güclü və qüdrətli dövlətin vətəndaşı olmağı ilə qürur duyur, respublikamızın daha da güclənməsinə, qüdrətlənməsinə öz töhfələrini verməyə çalışır, əsl vətəndaşlıq məsuliyyətlərini ölkənin ictimai-siyasi həyatında tutduqları sağlam mövqe ilə təsdiqləyirlər. Sağlam düşüncəyə malik Azərbaycan gəncliyi onun üçün yaradılmış bu şəraitlərə görə öz Prezidentinin, gənclərin dostu olan, onlara hər zaman qayğı ilə yanaşan Prezident İlham Əliyevin ətrafında sıx birləşib!"

***Nəzakət ƏLƏDDİNQIZI***

# Gənclərin ictimai həyatda fəallığı artır



***"Gənc nəsil onun qarşısında duran vəzifələrin yerinə yetirilməsi üçün bütün gücünü səfərbər edib". Bu fikri "Səs" qəzetinə açıqlamasında Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının tələbəsi Yeganə Cavadova bildirib. O, qeyd edib ki, ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir: "Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət-gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar.***

Bu gün Cənab Prezident tərəfindən həyata keçirilən gənclər siyasəti yeni mərhələsini yaşayır. Azərbaycan dövləti sürətli inkişaf dövrünü yaşayır və bu inkişaf təbii ki, gənclər üçün yeni imkanlar açır. Azərbaycan Prezidenti İlham Əliyevin "I və II dərəcə əlilliyi olan şəxslərin, habelə, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil haqqı xərclərinin ödənilməsi haqqında" Sərəncamı I və II dərəcə əlilliyi olan şəxslərin, habelə, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsilə əlçatanlığını təmin etmək və onların təhsil almaq imkanlarını genişləndirmək məqsədilə özündə ehtiva edir. Bundan başqa, dövlət başçısı doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin, Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə dövlət qayğısını artırmaq və onların sosial müdafiəsini daha da gücləndirmək məqsədilə Sərəncam imzalamışdır. Sərəncam nəticəsində, tələbələrin təqaüdlərinin artırılması nəticəsində, onlarda stimul yaranmışdır".

Qloballaşma prosesi və mədəniyyət arasında fərqlərin sürətlə aradan qalxdığı, milli identikliyin qorunmasının xeyli mürəkkəbləşdiyi indiki dövrdə gənc nəslin narkomaniya, alkoqolizm və digər mənfi təsirlərdən uzaq qalması, infeksion və qeyri-infeksion xəstəliklərdən müdafiəsi, psixoaktiv maddələrin qəbulunun qarşısının alınması həyati vacib bir məsələ kimi qarşıya çıxır. Y.Cavadova bu məqsədlə müvafiq dövlət qurumları qarşısında maarifləndirmə tədbirlərinin aparılması ilə bağlı vəzifələr qoyulduğunu diqqətə çatdırıb. Mühüm istiqamətlərdən biri də sosial müdafiəyə ehtiyacı olan gənclərin səhiyyə xidmətlərindən istifadə imkanlarının genişləndirilməsidir. Onun sözlərinə görə, bundan başqa, bu kateqoriyadan olan gənclərin mədəni-kütləvi idman tədbirlərinə cəlb edilməsi gənclərə diqqət və qayğının təzahürüdür: "Son zamanlar təkcə paytaxtda deyil, regionda yaşayan gənclərin məşğulluq məsələlərinə xüsusi həssaslıq göstərilir. Dövlət strukturları istedadlı gənclərin üzə çıxarılması, habelə, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyənlərə yardımların göstərilməsi ilə bağlı bir sıra tədbirlər görməkdədir. Bu sahədə yardım yalnız maddi xarakter daşımır, gənclər üçün peşə məsləhətlərinə və karyera inkişafına dair metodiki vəsaitlərin hazırlanması və məsləhət xidmətlərinin təşkili də məşğulluq problemlərinin həllində özünəməxsus rol oynayır".

Y.Cavadova gənclərlə iş sahəsində normativ-hüquqi bazanın təkmilləşdirilməsi və gənclər siyasətinin həyata keçirilməsinin səmərəliliyinin artırılması üçün mühüm tədbirlər görüldüyünü, gənclərin geniş fəaliyyət azadlığının təmin olunuğunu da bildirdi. Ölkə gəncləri də vətən və dövlət qarşısındakı məsuliyyətini lazımınca dərk edərək, bu imkanlardan bacarıqla yararlanırlar.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Göytəpədə gənc əsgərlərin andiçmə mərasimi keçirilib

***18 may 2019-cu il tarixdə Dövlət Sərhəd Xidmətinin Göytəpə şəhərində yerləşən hərbi hissəsində gənc əsgərlərin andiçmə mərasimi keçirilib. DSX-nin mətbuat xidmətindən SİA-ya verilən məlumaya görə, Dövlət himninin səslənməsi ilə başlayan mərasimdə gənc əsgərlər təntənəli şəkildə hərbi anda gətirildikdən sonra tədbir iştirakçılarına Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyevin təbriki çatdırıb.***





Mərasimdə Ulu Öndər Heydər Əliyevin dövlət sərhədlərimizin qorunması, Azərbaycan sərhəd mühafizəsinin formalaşması və inkişafı istiqamətindəki xidmətləri, böyük dövlət xadiminin müəyyənləşdirdiyi milli sərhəd strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi sayəsində ölkəmizin sərhəd mühafizəsinin ən müasir tələblər səviyyəsinə qaldırılması xüsusi qeyd edilib. Çıxış edənlər Vətənə, dövlətə sədaqət andı içərək müqəddəs sərhədlərimizi şərəflə qorumaq məsuliyyətini öz üzərinə götürən gənc əsgərlərin hərbi anda daim sadiq qalacaqlarına və Azərbaycan Sərhəd Mühafizəsinin 100 illik yubileyini xidmətdə qazanılmış yüksək nailiyyətlərlə qarşılayacaqlarına əminliklərini bildirərək onlara müvəffəqiyyətlər arzulayıblar.



Tədbirdə Dövlət Sərhəd Xidmətinin şəxsi heyətinin ölkəmizin ərazi bütövlüyü-nün bərpası, işğal altında olan torpaqlarımızda Azərbaycanın suveren hüquqlarının təmin edilməsi və həmin ərazilərdə dövlət sərhədlərinin mühafizəsinin Azərbaycanın dövlət bayrağı altında təşkil ediləcəyinə əminlik ifadə edilib. Eyni zamanda Ermənistan ilə dövlət sərhədinin Qazax və Ağstafa rayonları ərazisindən keçən hissəsinin mühafizəsinin Dövlət Sərhəd Xidmətinə həvalə olunması şərəf və qürur olmaqla yanaşı eyni zamanda Ali Baş Komandanın Azərbaycan sərhədçisinə olan etimad və etibarının ifadəsi kimi dəyərləndirilib. Çıxış edən valideynlər yaradılmış şəraitə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirib, övladlarını təbrik edərək Vətən sərhədlərinin keşiyində ayıq-sayıq dayanmağı tövsiyə ediblər. Mərasim gənc əsgərlərin təntənəli marşla tribuna önündən keçidi ilə başa çatıb.

# Ölkəmizdə həyata keçirilən iri layihələr xoşbəxt gələcəyimizə hesablanıb

*"ASAN Xidmət"ə 29 milyonuncu müraciətin qeydə alınması milyonlarla insana bürokratiyasız, korrupsiyasız və rahat xidmətin təzahürüdür*



***Müasir dövrümüzdə "ASAN Xidmət" dünyaya nümunə olan modeldir. Azərbaycan Prezidenti İlham Əliyevin dövlət idarəçiliyinin təkmilləşdirilməsi sahəsində həyata keçirdiyi islahatların tərkib hissəsi olan "ASAN Xidmət" dövlət və özəl xidmətlərin vahid məkandan innovasiyaların tətbiqi ilə vətəndaşlara çatdırılması sahəsində uğurlara səbəb olub.***



Məhz göstərilən yüksək xidmətin nəticəsidir ki, "ASAN Xidmət"ə 29 milyonuncu müraciət qeydə alınıb. Cari ilin 13 fevral tarixində 27 milyonuncu müraciət qeydə alınmışdısa, bu gün 29 milyonuncu vətəndaşın müraciətinin qeydə alınması mərkəzlərdə milyonlarla insana xidmətin bürokratiyasız, korrupsiyasız, rahat və mədəni şəkildə xidmətin təzahürüdür.

Hazırda ölkəmizdə 15 "ASAN Xidmət" Mərkəzi fəaliyyət göstərir. Onlardan 5-i paytaxt Bakı şəhərində, digərləri Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli və Şəkidədir. Bundan başqa, regionlarda 10 səyyar "ASAN Xidmət" avtobusu və səyyar "ASAN Qatar" vasitəsilə vətəndaşlara səyyar formada xidmətlər göstərilir. Həmçinin, Bakı şəhərində əhaliyə kommunal sahədə xidmətlər göstərən 2 "ASAN Kommunal" mərkəzi də fəaliyyətdədir.

## "ASAN XİDMƏT"İN BƏYƏNMƏ ƏMSALI 100 FAİZƏ YAXINDIR"

Bu gün ölkəmizdə mərkəzlərin sayı artmaqdadır. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirib ki, bu il bölgələrdə beş "ASAN Xidmət" Mərkəzinin yaradılması nəzərdə tutulur və beləliklə, onların sayı 20-yə çatacaq: "Mənə verilən məlumata görə, Bakı şəhərində də yeni mərkəzlərin tikintisinə ehtiyac var. Çünki "ASAN Xidmət"in funksiyalarının həcmi və müraciətlərin sayı artır, bəzi yerlərdə növbələr yaranır. Biz "ASAN Xidmət"i, məhz ona görə yaratdıq ki, bu, asan olsun, bu xidmət rahat olsun, növbə olmasın, heç bir pozuntu olmasın, şəffaf olsun. Buna nail olmuşuq. "ASAN Xidmət"in bəyənmə əmsalı 100 faizə yaxındır. Ancaq nəzərə alsaq ki, funksiya genişlənir və müraciətlərin sayı artır, bəzi yerlərdə növbələr yaranır. Ona görə göstəriş vermişəm ki, - ilkin vəsait də ayrıldı, - Bakı şəhərində əlavə iki "ASAN Xidmət" Mərkəzi yaradılsın və beləliklə, onların sayı 22-yə çatacaq". Davamlı inkişafı və spesifik milli inkişaf modeli ilə tanınan Azərbaycanın uğurlu inkişafı təmin edilir, ölkəmizdə təhlükəsizlik yüksək səviyyədə qorunur və ictimai-siyasi sabitlik möhkəmlənir. Bu gün təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan inkişaf strategiyası Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Həyata keçirilən siyasi-iqtisadi idarəçilik modeli nəticəsində, ölkəmizdə bütün sahələrdə uğurlar və yeniliklər əldə edilir. Azərbaycan modeli dünya ölkələri üçün nümunəyə çevrilib.

Göründüyü kimi, dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində əhəmiyyətli işlər görülüb və bu istiqamətdə müvafiq hüquqi baza formalaşdırılıb. Azərbaycan Prezidenti İlham Əliyevin "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Fərmanı ölkəmizdə, nəinki elektron hökumətin inkişafı, həm də korrupsiyaya qarşı mübarizənin daha da gücləndirilməsində mühüm rol oynadı.

## "AZƏRBAYCAN İNDİ İNTELLEKTUAL MƏHSULLARI HƏM YARADIR, HƏM DƏ İXRAC EDİR"

Bürokratik əngəlləri və mümkün korrupsiya hallarını aradan qaldıran "ASAN Xidmət" Mərkəzi haqqında dövlət başçısının vurğuladığı kimi, "ASAN Xidmət", doğrudan da, ictimai xidmətlər, ümumiyyətlə, ictimai əlaqələr sahəsində bir inqilab olub. Bu gün dünyanın aparıcı maliyyə qurumları bizim təcrübəmizi çox yüksək qiymətləndirir və tövsiyə edirlər ki, bu təcrübə başqa ölkələrdə də tətbiq olunsun. Azərbaycan indi intellektual məhsulları həm yaradır, həm də ixrac edir. Bu, doğrudan da, çox böyük hadisədir". Bu modeldən dünya ölkələri bəhrələnir. Dövlət xidmətlərinin səmərəliliyinin artırılması hazırda bir çox ölkələr üçün önəmli çağırışlardan biri olduğundan, tərəfdaş ölkələrlə "ASAN Xidmət" modelinin tətbiqi, təcrübələrin paylaşması istiqamətində fəal əməkdaşlıq aparılır. Beynəlxalq qabaqcıl təcrübə kimi, bu gün "ASAN Xidmət"in fəaliyyəti Avropa İttifaqı, Avropa Parlamenti, Böyük Britaniya Parlamenti, Fransa, Almaniya və digər ölkələrdə yüksək qiymətləndirilir. Artıq Azərbaycanın "ASAN Xidmət" modeli əsasında Əfqanıstanda dövlət xidmətlərinin göstərilməsi sahəsində eyniadlı qurum "Asan Khedmat" təsis edilib. Bundan başqa, İtaliya, Koreya Respublikası, Fransa, İndoneziya, Monteneqro və ISESCO təşkilatı ilə əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.

"Ölkəmiz müasirləşir və inkişaf edir. "ASAN Xidmət"in fəaliyyətə başlaması bizim niyyətimizi göstərir. Biz istəyirik ki, insanlar rahat yaşasınlar, ən gözəl xidmətlərə malik olsunlar" deyən Prezident İlham Əliyev korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədə də "ASAN Xidmət"in çox mühüm rol oynadığını vurğulayıb. Bu gün Azərbaycanda görülən hər iş, aparılan islahatlar, reallaşan layihələr insanların sosial məişətinin və həyatın firəvanlığına yönəlib. Buna Azərbaycanın, bütövlükdə, inkişafı imkan verir.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Suraxanı rayonunda ilin 1-ci rübünün yekunları müzakirə olunub

***Azərbaycan Prezidenti İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Cənab İlham Əliyevin giriş və yekun nitqindən irəli gələn vəzifələr və Suraxanı rayonunda 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunları rayon icra hakimiyyəti başçısı yanında Şuranın geniş iclasında ətraflı müzakirə olunub, qarşıda duran vəzifələr konkretləşdirilib.***

Dövlət başçısının çıxışında səsləndirdiyi başlıca müddəalar barədə ətraflı məlumat verən rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov, son 15 il ərzində, Azərbaycanın dinamik inkişaf etdiyini vurğulayaraq, bu ilin birinci rübündə ümumi daxili məhsulu 3 faiz, sənaye istehsalı 4,4 faiz, qeyri-neft sektorunda sənaye istehsalı 15,6 faiz, kənd təsərrüfatı 3,6 faiz, əhalinin gəlirlərinin 5,5 faiz artdığını bildirib: "Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" çərçivəsində "Neftçilər" Parkında yenidənqurma işləri başa çatdırılmışdır. Ümumi sahəsi 6 hektar olan ərazinin 4 hektarlıq hissəsində Mədəniyyət və İstirahət Parkı yaradılmışdır. Azərbaycan Prezidenti İlham Əliyev və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva aprelin 18-də əsaslı şəkildə yenidən qurulan "Neftçilər" Parkında yaradılan şəraitlə tanış olmuşlar. Xocalı soyqırımının 27-ci ildönümü münasibəti ilə 26 fevral tarixində Heydər Əliyev Fondunun vitse-prezidenti, "Xocalıya ədalət!" kampaniyasının təşəbbüskarı Leyla xanım Əliyevanın iştirakı ilə Xocalı soyqırımı qurbanlarının xatirəsini əbədiləşdirmək məqsədilə, "Neftçilər" Parkında 613 ağac əkilmişdir".

İ.Abbasov bildirib ki, hesabat dövründə istilik qazanxanalarında, magistral və məhəllədaxili istilik xətlərində baş vermiş qəzalar aradan qaldırılıb və təmir işləri aparılmışdır. Rayon ərazisində mövcud TM və KTM-lərdə zədəli kabel xətləri və nasaz avadanlıqlar təmir olunmuş və ya yeniləri ilə əvəz edilmişdir. 2019-cu ilin 3 ayı ərzində, ətraf mühitin yaxşılaşdırılması tədbirləri davam etdirilmişdir. Rayon ərazisində məişət tullantılarının vaxtında daşınmasının, eləcə də, sanitar təmizliyin təmin olunmasının nəzarətdə saxlanılması məqsədi ilə komissiya yaradılmış, tədbirlər planı təsdiq edilmiş və məsələ ciddi nəzarətə götürülmüşdür. Hesabat dövrü ərzində, rayonda RİH-in təşkilatçılığı və digər qurumların iştirakı ilə bir çox ictimai-siyasi tədbir keçirilmiş, dövlət bayramları və əlamətdar günlər qeyd edilmişdir. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "ASAN Xidmət" mərkəzinin müasir texniki avadanlıqlarla təchiz edilmiş xüsusi avtobusları vasitəsilə 2019-cu ilin fevral-mart aylarında Hövsan və Zığ qəsəbələrində 1363 nəfər vətəndaşa səyyar formada "ASAN Xidmət" göstərilmişdir. İ.Abbasov, onu da vurğulayıb ki, Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, işsiz vətəndaşların haqqı ödənilən ictimai faydalı işlərə cəlb edilməsi proqramı davam etdirilmiş, cari ildə rayon üzrə 850 nəfər işsiz vətəndaşın yeni yaradılmış "DOST İŞ Mərkəzi" MMC tərəfindən haqqı ödənilən ictimai işlərə cəlb edilməsi nəzərdə tutulmuş və hazırda 728 nəfər bu sahədə işə qəbul edilmişdir.

Şuranın geniş iclasında Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Tağı Tağıyev, rayonun müəssisə və xidmət sahələrinin rəhbərləri və rayon sakinləri çıxış etmişdir.

**Zümrüd BAYRAMOVA**

# "Əli Kərimli tərəfdarlarının azalmasından qorxuya düşüb"



***"Görünür Əli Kərimli onun tutduğu yanlış yolla gedənlərin sayının Azərbaycanda getdikcə azaldığından narahat olmağa başlayıb". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Elman Məmmədov deyib. O bildirib ki, Əli Kərimli mühacirlərin xaricdən ölkəmizə qayıdıb gəlməsi, tənqidçilərin sayının daha da azalması və tək qalmasından qorxur: "Əli Kərimliyə sual vermək lazımdır ki, Azərbaycandan kənarda yaşayan vətəndaşlarımızın hansı birinin ölkəmizə qayıtmaq istəyinə qadağa qoyulub? Belə bir hal təbii ki olmayıb. Ölkəmiz bütün vətəndaşlarının üzünə açıqdır. Onlar bizim vətəndaşlarımızdır və kim istəsə Vətəninə gələ bilər. Görəsən Əli Kərimli islah olunmuş mühacir deyəndə kimi nəzərdə tutur? Təsadüfən Emin Millini demir ki?".***

Deputat söyləyib ki, Azərbaycan qanunlarına hörmətlə yanaşan, uyğun yaşayan vətəndaşlarımız üçün ölkəmiz doğma Vətəndir: "Kimsə xaricdə etdiyi, törətdiyi cinayət tərkibli əməllərinə, danışıdığı sözlərə görə ehtiyat edib geri dönmürsə demək həmin şəxs bilir ki, Azərbaycana gələn kimi qanun qarşısında cavab verməli olacaq".

E.Məmmədov qeyd edib ki, Əli Kərimli Azərbaycanda yaşayaraq bütün humanist qanunlardan eninə, boluna istifadə edir: "Amma bütün bunlara baxmayaraq, o, şər böhtan xarakterli addımlarından əl çəkmir. Siyasi etikanın bütün sədlərini aşan Əli Kərimlinin ətrafında onun kimi düşünən heç kim qalmayıb. Artıq illərdir ki qeyri-qanunu fəaliyyəti ətrafdakılarının ondan uzaqlaşmasına səbəb olub. AXCP funskionerləri onun tərəfindən haqsızlıqları görərək pərəm-pərəm düşür, Əli Kərimdən haqlı şəkildə kənarlaşırlar. Bu da müxalifət düşərgəsinin daxilində çaxnaşmanın olduğunu göstərir. Bütün bunlar Əli Kərimlinin yarıtmaz, qeyri-qanuni fəaliyyəti nəticəsində olub".

**Nailə Məhərrəmova**

# Əli Kərimli Emin Millini niyə düşməni elan etdi?

*Müsahiblərimiz Əli Kərimlinin düşüncəsində və ağlında problemlərin yarandığını və bu səbəbdən də, səhvlərini etiraf edərək, üzrxaqlıq edən Emin Millini hədəfə aldığını bildirdilər*

**Müxalifət düşərgəsində təmsil olunan dağıdıcı xislətli partiya sədrlərinin anormal fəaliyyətlərinin bütün çərçivələri aşdığını demək olar. Çünki hər fürsətdə ölkəmizin milli və dövlətçilik maraqlarına zərbə vurmağa, uğurlu nailiyyətlərə kölgə salmağa çalışırlar. Hətta səhvlərini etiraf edib, xalqdan və Prezidentdən üzr istəyənləri belə hədəfə alır, onları satqınlıqda günahlandırırlar.**

Misal kimi, AXCP sədri Əli Kərimli Emin Millinin buraxdığı səhvlərinə görə, Prezident İlham Əliyevdən üzr istəməsini tənqid edərək, onu islah olunmuş mühacir adlandırmasını göstərmək olar. Söhbət etdiyimiz müsahiblərimiz Ə.Kərimlinin düşüncəsində və ağlında problemlərin yarandığını və bu səbəbdən də, səhvlərini etiraf edərək, üzrxaqlıq edən E.Millini hədəfə aldığını bildirdilər.

"Azadlıq Hərəkatçılar Birliyi"nin sədri Təhmasib Novruzov: **"Emin Millinin haqq yoluna qayıtması Əli Kərimlini ciddi narahat edib"**



- Əli Kərimli özünü siyasi müxalifət, hətta ana müxalifət hesab edir. Onun siyasətinin də ana xətti indiki hakimiyyətdən narazı qüvvələrdən istifadə edib, tərəfdaşlarının sayını artırmaqdan ibarətdir. Əlbəttə, normal və sivil cəmiyyətlərdə, bu, normal hal hesab edilə bilər. Ancaq Əli kimilərin özlərinə, yalnız bu yolla tərəfdar toplamaq istəkləri gülünc görünür. Yəni heç bir proqramı, konsepsiyası olmayan, insanları proqramına inandıra bilməyən, onun ətrafında cəmiyyətin müəyyən təbəqələrini birləşdirə bilməyən bir siyasi qüvvənin yeganə çıxış yolu, məhz hakimiyyətdən hansısa səbəbə görə narazı qalan insanları ətrafına cəlb etmək, onların şəxsi intiqam hissindən yararlanmaqdan ibarətdir. Bu baxımdan, Emin Milli kimi birinin dünənə kimi yanlışlıqla şər-böhtan komandasında olması, birdən-birə haqqı dərk edib yoluna qayıtmaq istəyi, təbii ki, Ə.Kərimlini ciddi narahat etməlidir. Təsəvvür edin ki, Eminin ardınca digər fiqurlar da yoluna qayıdıb, dövlət və dövlətçilik maraqlarına zidd addımlardan imtina etdi. O zaman Əli kimilər meydanda tamamilə tək qalır və çığırbağırlarını da ancaq özləri eşidir. Bax, bu sindromdan narahat olduğuna görə Ə.Kərimli Emin Millini tənqid atəşinə tutur ki, bu yolda onunla birlikdə olan digərlərinə "dərs" olsun. Arzu edərdik ki, nəhayət, Ə.Kərimli özü haqqın yoluna dönmək, anti-hakimiyyət deyil, anti-dövlət, anti-Azərbaycan fəaliyyətinə son qoyub, normal siyasi mübarizə üsullarını öyrənmək haqqında düşünəydi. Zənnimcə, o zaman Əlinin azçox hörməti olar, nəinki indiki siyasi dəllallığını davam etdirməklə.

AGAAMC-nin sədri, fəlsəfə doktoru İlqar Orucov: **"Əli Kərimli iyrənc siyasətinin qurbanı olacaq"**

- Emin Millinin məlum bəyanatı və Prezident İlham Əliyevdən üzr istəməsi, müsbət dəyərləndirilir. Yəni E.Milli səhv yolda olduğunu başa düşdü və Prezident İlham Əliyevdən üzr istəməklə, konkret mövqe ortaya qoydu. Əlbəttə ki, Ə.Kərimlinin buna münasibətində yenə də bir qısqanclıq ifadə etməsi, eyni zamanda, E.Millinin konkret mövqeyini ortaya qoymasından sonra onu qorxaq və yaxud "islah olunmuş mühacir" adlandırması, əlbəttə ki, Ə.Kərimlinin mahiyyətini bir daha ortaya qoyur. Adam, konkret olaraq, onunla olmayan, ondan fərqli mövqe ortaya qoyan istənilən adama qarşı münasibətdə bu cür qərəzli və aqressivdir. Əslində, bütün bunların fonunda Ə.Kərimlinin gəncləri dağıdıcı müxalifətdə görmək istəməsi dayanır, eyni zamanda, hər zaman müxalifət daxilində mənfi tendesiyaların baş verməsini arzulayan adam olduğunu göstərir. Çünki onun ətrafında olanlar özü səviyyəli insanlardır. Avropadakı "söyüş müxalifəti"nin üzvləri, vaxtilə Ə.Kərimlindən aldıqları saxta arayışları əsasında Avropada və başqa-başqa ölkələrdə sığınacaqlar almış ünsürlərdir. Məhz Ə.Kərimlinin təlimatı əsasında "söyüş müxalifəti"nin üzvləri ölkəmizə qarşı iyrənc mövqe sərgiləyirlər. Yəni anormal fəaliyyətləri ilə seçilən "söyüş qrupu"nun formalaşmasında, Ə.Kərimlinin müstəsna xidmətləri var. Ə.Kərimli, kimsə səhv yolda olduğunu başa düşüb geri dönürsə o insana qarşı barışmazdır, o insanlara qarşı ən ağır formada ittihamlar, təhqirlər irəli sürüb, onları aşağılamağa çalışır. Əlbəttə ki, insan fikrini dəyişə bilər, səhv yolda olduğunu anlayıb, doğru yola qayıda bilər. Necə ki, E.Milli səhvini etiraf edərək, üzr istədi. Amma Ə.Kərimli, gördüyünüz kimi, bunu qəbul etməyib və onunla barışmaq istəmir. Ə.Kərimli istəyir ki, hər kəs onun kimi ağı qara görsün və onun kimi düşünsün. Yəni onların istəyi ölkəmizdə xoşagəlməz bir vəziyyət yaratmaq istəyi ilə bağlıdır. Müxalifətin üz qarası olan bir adam öz çirkin niyyətlərini həyata keçirmək yolunda ən iyrənc addımı da atmağa hazırdır. Amma onun ölkəmizlə bağlı planları heç vaxt baş tutmayacaqdır. Bütün bunların fonunda, onu demək olar ki, əslində, Azərbaycan cəmiyyəti kərimliləri dəstəkləmir. Ə.Kərimlinin E.Millini "islah olunmuş mühacir" adlandırması, əslində, qərəzin və Ə.Kərimlinin siyasi mədəniyyətsizliyinin göstəricisidir.



**GÜLYANƏ**

## Zelenski Ali Radanın buraxıldığını elan edib



Ukrayna prezidenti Vladimir Zelenski Ali Radada inauqurasiyası zamanı Ukrayna parlamentinin buraxılacağını elan edib. "Səkkizinci çağırış Ali Şuranı ləğv edirəm", deyə o bildirib. SİA RT-ə istinadən xəbər verir ki, yeni prezident hökuməti də istefaya çağırıb. Daha əvvəl mətbuatda xəbər verilirdi ki, Vladimir Zelenski parlamentin səlahiyyətlərinin dayandırılması və erkən seçkilərin təyin edilməsi haqqında fərman hazırlayıb. Bəzi məlumatlara görə, seçkilər iyulun 14-də baş tuta bilər.

## Köçəryan azadlığa çıxdı, Paşinyan qorxuya düşdü!



Ermənistanın baş naziri Nikol Paşinyan ölkədə inqilabın ikinci və əsas mərhələsinin anonsunu verib. Bu barədə o öz Feysbuk səhifəsində yazıb: "Sabah (bu gün) saat 12:00-da mən Ermənistanda inqilabın ikinci mərhələsini elan edəcəm. Ümumxalq dəstəyini səbirsizliklə gözləyirəm". Daha öncə Paşinyan həmvətənlərini ölkədəki bütün məhkəmələri blok etməyə çağırmışdı. Bu bəyanat sabiq prezident Robert Köçəryanın azadlığa buraxılmasından dərhal sonra səsləndirilmişdi. Koçaryanın azadlığa buraxılması üçün Qarabağ separatçılarının sabiq və hazırki rəhbərləri Bako Saakyan və Arkadi Qukasyan girov qoyub və zamin durublar.

## "Ermənistan İrana qarşı ABŞ planına qoşulub"



**RF elmi-tədqiqat "Ali iqtisadiyyat məktəbi" universitetinin professoru Oleq Matveyçev Ermənistan mətbuatına verdiyi müsahibədə Ermənistanı ABŞ-ın əlində İrana qarşı alət kimi təqdim etdi". Bunu SİA-ya açıqlamasında Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu deyib. Mərkəz sədri deyib ki, Matveyçevin sözlərində bizim üçün qeyri-adi heç bir şey yoxdur: "Ermənistan İrana qarşı xüsusilə ABŞ tərəfindən alət kimi istifadə olunub. Ermənilər İranın daxilində ABŞ-ın xeyrinə casusluqla məşğul olurlar. Hətta ABŞ vətəndaşı olan erməni qadın bir neçə dəfə İrana gəl-get etdikdən sonra sərhəddə saxlanıldı. ABŞ-ın Ermənistanda Vorotan Su Elektrik Stansiyasını almaqda məqsədi də məhz İran ərazisində casusluq həyata keçirən qurğuları yerləşdirmək idi.**

Ermənistanda İran rəsmilərinin ABŞ-a müraciəti ilə bağlı konkret adlar və ərizələr var. Bir sıra İran rəsmiləri Ermənistan vasitəsilə ABŞ-dan Qrinkart və yaxud digər sənədlər alıblar, ailə üzvlərini ABŞ-da yaşamağa göndəriblər. Bu mənada Ermənistanın ABŞ-ın əlində İrana qarşı alət olması heç bir təəccüb yaratmır. O.Matveyçevin sözü də mötəbər fikirdir. Çünki Matveyçev özü Moskvada Amerikanın təsis etdiyi, maraqlarına uyğun olan ali məktəbdə işləyir. Eləcə də onun həyat yolu eynilə RT kanalının rəhbəri Marqarita Simonyanın siyasi həyat yolu kimidir. Hər ikisi Amerikapərəst gənc kimi fəaliyyətə başlayıblar və Amerikanın bütün vacib proqramlarında iştirak edib, təhsil kurslarını keçiriblər. Sadəcə sonradan nəyinsə hesabına Amerikadan üz döndərib, Rusiyaya tərəf çeviriliblər. Ona görə Matveyçev Amerikanın region siyasətinin, "məxməri inqilab" törətməyin incəliklərini bilən şəxsdir.

ABŞ Dövlət Katibinin müavinin yardımçısı C.Kentin regiona səfəri zamanı yalnız Ermənistanda müqavilə imzalandı. ABŞ-Ermənistan münasibətləri hal-hazırda ən minimum həddədir. Çünki Paşinyanı Amerika hakimiyyətə gətirsə də, o Rusiyanın maraqlarına işləyir. Amma N.Paşinyan görünür ABŞ-ın maraqlarına gizli işləməyə etibarlı təminatlar verdiyi üçün artıq ABŞ N.Paşinyana inanır və ona görə də maliyyə vəsaiti ayırmağa başladı.

ABŞ üçün Ermənistanın yerləşdiyi coğrafiyada ən aktual mövzu İran məsələsidir. C.Bolton gəldi, müəyyən söhbətləri apardı. Ermənistan tərəfi təkzib etsə də sonradan bəlli olur ki, ABŞ-ın əlində Ermənistanın anti-İran olmasına əsaslar var və ona görə ABŞ bundan istifadə edir. N.Paşinyanın İrandan qayıdan kimi İsrailə 2 nümayəndə heyəti göndərməsi göstərir ki, Ermənistan özü İranın daxilində ABŞ-ın maraqlarına cavab verən iş aparmaqda həvəslə maraqlıdır. İsrail ABŞ-dan aldığı məlumatlar əsasında Ermənistanı İrana qarşı layihələrə cəlb edəcəyinə çox inanır. Yeri gəlmişkən Aİ-nin son tədbirində də Ermənistana verilən dəstəyin arxasında ola bilər ABŞ-dan gələn siqnal dayanısın. ABŞ Aİ-yə Ermənistanın anti-İran layihələrdə iştirak etməsi ilə təsir edə bilər; hələki Dağlıq Qarabağ məsələsində Ermənistanın maraqlarına zidd olan addımlar atılmasın.

ABŞ-ın Ermənistanda qurduğu casus şəbəkə və Ermənistan vasitəsilə ABŞ-la əlaqə qurmaq yolunda olmuş rəsmilərin fəaliyyəti İran üçün ciddi nəticələr yarada bilər".

***Ceyhun Rasimoğlu***

## Tovuzda bir ailənin 5 üzvü balıqdan zəhərləndi



Tovuz rayonunda bir ailənin 5 üzvü zəhərənib. SİA-nın bölgə müxbirinin verdiyi məlumata əsasən hadisə rayonun Bozalqanlı kəndində qeydə aınıb. Əliyevlər ailəsində baş verən hadisə zamanı 2010-cu il təvəllüdlü Rəvan Rəşad oğlu Əliyev, 2011-ci il təvəllüdlü Həsən Rəşad oğlu Əliyev, 2 yaşlı Mehriban Rəşad qızı Əliyeva, 1985-ci il təvəllüdlü Rəşad Əliyev və Mələhət Vaqif qızı Məmmədova qida zəhərlənməsi diaqnozu ilə Tovuz Rayon Mərkəzi Xəstəxanasına çatdırılıblar.

Xəstələrin vəziyyətinin orta-ağır olduğu bildirilib. Yaxınlarının sözlərinə görə zəhərlənən ailə üzvləri balıq yedikdən sonra səhətləri ağırlaşıb. Faktla bağlı araşdırma aparılır.

# Əli Kərimlini manyaka çevirən məqamlar hansılardır?

*AXCP sədrinin kürkünə birə düşməsinə səbəb olan faktlar*

***Sirr deyil ki, AXCP sədri Əli Kərimli onun sərsəm baxışlarını bölüşməyən, yaxud partiyası daxilində apardığı siyasətinə qarşı etirazlı münasibət bildirən hər kəsi - hətta ən yaxın adamı olsa belə, özündən kənarlaşdırır, üstəlik, həmin adamlara qarşı çirkin, iyrənc qarayaxma kampaniyalarına başladır. Ümumiyyətlə, AXCP sədrinin uzun illərdir belə bir mövqedə dayanması, istər partiyasının dəfələrlə parçalanmasına, istər müavinlərinin AXCP sıralarını tərk etmələrinə, istərsə də partiyadaxili qiyamların qalxmasına səbəb olub. Bu gün onu siyasətçi kimi deyil, manyak kimi qiymətləndirənlər də az deyil.***

## Reallıq Əli Kərimlini ciddi surətdə təlaşlandırır

Bu arada, Avropada özlərini "siyasi mühacir" kimi təqdim edib, Azərbaycan dövlətinə qarşı ermənilərdən də betər düşmənçilik mövqeyi sərgiləyən satqınlar və xainlər yığnağının sıraları get-gedə seyrəlməyə başlayıb. Bir neçə Orduxan, Vidadi tipli gəda-güdələri çıxmaq şərti ilə, bəzi "siyasi mühacirlər" açılım məsələsinə önəm verməyə başlayıblar ki, bu realıq Ə.Kərimlini ciddi surətdə təlaşlandırır. Belə ki, sosial şəbəkələrdə canlı yayımlara çıxaraq, özünü kürkünə birə düşmüş kimi aparan AXCP sədrinin aqressiv, dözümsüz və psixoloji sarsıntıya uğramış fərd kimi aparması qeyd edilən nüansları sübut etməkdədir. Onu təlaşlandıran amil isə, budur ki, "siyasi mühacirlər" öz səhvlərini anladıqca, fəaliyyətlərində yumşalma nümayiş etdirəcəklər və bu vasitə ilə ondan kənarlaşacaqlar. Beləliklə, Ə.Kərimli ortada yalqız qalacaq. Yəni onun siyasi şivənçilik metoduna dəstək verənlər tapılmayacaq.



## Bu, AXCP sədrinin xəstə təfəkküründə yer almış bəd xassəli şişə çevrilən gerçəklikdir

Yeri gəlmişkən, AXCP sədrinin hakimiyyətə qarşı nifrət hissinin aqressivliklə müşahidə edilməsi onun manyaklıq hisslərini daha çox aşkara çıxarmağa başladıb. Hətta onun düşüncəsinə görə, dünyada müxtəlif ağır qətllər törədən və bu gün həyatda olmayan manyaklar dirilib iqtidarın siyasətini hədəfə alarlarsa, onlar dərhal Ə.Kərimli tərəfindən "siyasi məhbus" elan ediləcəklər. O, hətta həmin manyakların Azərbaycan hakimiyyəti tərəfindən "təqiblərə" və "basqılara" məruz qaldığını da sərsəmcəsinə iddia edə biləcək qədər ucuz şoular yaratmağa başlayar. Bu, AXCP sədrinin xəstə təfəkküründə yer almış bəd xassəli şişə çevrilən gerçəklikdir. Ona görə də, Kərimli artıq siyasi etikanın bütün mümkün sədlərini aşıb və özünü idbar xasiyyətlərə malik olan manyaklar kimi aparır.

## Əli Kərimli son vaxtlar islah olunmuş mühacirlər barədə də çənə döyür, bu isə, müəyyən mənada, Emin Milliyə vurulan eyham kimi anlaşılır

Bu arada, daha bir "siyasi mühacirin" - "Meydan" TV-nin istefa vermiş rəhbəri Emin Millinin son zamanlar yumşalma tendensiyaları ilə çıxış etməsi, ifrat radikalizmin, nifrət üzərində qurulmuş siyasətin siyasi mübarizədə yerinin olmaması barədəki fikirləri cəbhəçilərin sədrinin yuxusunu ərşə çəkib. O, ehtiyat edir ki, sabah-birigün, digər "siyasi mühacirlər" də, E.Milli tərzində yumlaşma metoduna əl ataraq, ölkəyə geri dönmək yollarını axtarıb-aramağa başlayacaqlar. Maraqdoğurucu məsələ isə budur ki, Ə.Kərimli son vaxtlar islah olunmuş mühacirlər barədə də çənə döyür, bu isə, müəyyən mənada, E.Milliyə vurulan eyham kimi anlaşılır. Hətta belə demək mümkündür ki, Ə.Kərimli E.Millinin bostanına daş atır. Son vaxtlar onun trollarının E.Millini söyməiləri və ən ağır təhqirlərə məruz qoymaları da bu xüsusdadır.

## Onda vəhşiləşmə və manyaklaşma halları daha çox artmağa başlayır...

Sonda isə, belə bir faktı xatırlamaq olar. 26 ildir ki, "biz gəlirik", "qələbə bizimdir" tipli şüarları ilə insanların, sözün əsl mənasında, zəhləsini aparan AXCP sədri, həmin illər ərzində, ən yaxın ətraflarını itirə-itirə gəlib. Əbəs deyil ki, bu gün AXCP 6-7 yerə parçalanaraq, müxtəlif adda digər siyasi müxalifət partiyalarına çevrilib. Bütün bu reallıqları dərk etməsi, gedənlərin onun manyaklıqları ucbatından, istefa vermələrini anlamaları əvəzinə, Ə.Kərimli özünü ciddi-cəhdlə "təmizə" çıxarmağa səy göstərir, göstərdikcə isə, daha çox özünü ifşa edir. Baxın, bu gün mərhum Elçibəyin dövründə olan AXCP funksionerlərindən heç biri onun yanında qalmayıb. Bu boşluğu isə reneqatlar və heç bir əxlaqı olmayan ünsürlər və zombilər doldurublar ki, onların da zamanları müəyyən olunmuş vaxta qədərdir. Bunu Kərimli də yaxşı bilir. Bildiyi üçün də, onda vəhşiləşmə və manyaklaşma halları daha çox artmağa başlayır...

**Rövşən NURƏDDİNOĞLU**

# "Ən dözümsüz adam Əli Kərimlinin özüdür"



***"Ümumiyyətlə AXCP sədri Əli Kərimlinin kimisə dözümsüzlükdə ittiham etməsinə heç bir mənəvi haqqı yoxdur". Bunu SİA-ya açıqlamasında siyasi şərhçi Azər Həsrət deyib.***

Siyasi şərhçinin sözlərinə görə, bu gün Azərbaycanda, xüsusən də siyasi müstəvidə ən dözümsüz adam məhz Əli Kərimlinin özüdür: "O hətta nəinki hakimiyyətə qarşı dözümsüzlük nümayiş etdirir, uzun illər biz müşahidə etmişik ki, bu adam müxalifət daxilində də şəxsini təhqirlə tənqid edən və yaxud onunla bağlı fərqli fikir söyləyən insanları daim küncə sıxışdırıb onlara qarşı dözümsüzlük nümayiş etdirib. Həmçinin deyərdim ki, ən aparıcı media qurumlarını belə boykot etməkdən çəkinməyib. Məsələn, Əli Kərimli bugünün özündə də "Yeni Müsavat" qəzetini boykot etməklə məşğuldur. Yəni bu adam fərqli fikirlərə dözümsüzlük nümayiş etdirir.

Digər tərəfdən onun mühacirlərdən sui-istifadə etməyə çalışması "suda boğulan adamın saman çöpündən yapışması kimi" bir şeydir. Yəni ölkə daxilində geniş dəstək ala bilməməsinə və arxasınca böyük bir insan ordusunu apara bilmədiyinə görə, xüsusilə də Azərbaycan insanının onun siyasi kimliyini yaxşı bildiyinə görə bu adam xaricdəki narazılardan istifadə etməyə cəhd göstərir. Amma bilirik ki, onlar da say etibarilə çox azdırlar. Həmçinin az olmaları ilə bərabər onların böyük əksəriyyəti Əli Kərimli siyasi lider kimi qəbul etmir. Bu adam sadəcə olaraq manipulyasiya etməklə məşğuldur və onları öz tərəfinə çəkmək üçün cəhdlər göstərir. O baxımdan onun atacağı, atmaqda olduğu, planlaşdırdığı və planlaşdırmaqda olduğu heç bir addım Azərbaycan cəmiyyəti üçün təhlükəli, qorxulu deyil. Yəni bu adam faktiki olaraq siyasi meydanda hər hansı hərəkətlənməyə səbəb ola biləcək bir şəxs deyil. O baxımdan düşünürəm ki, onun bu addımlarına əhəmiyyət verməməkdə olar".



**Təhmasib Novruzov**

# Yaddaşlardan silinməyən "yad daşlar"

Tariximiz çox keşməçeşlərdən keçib. Hünər dolu illərimiz, əsrlərimiz də olub, hünərimizdən qürrələnib özünü ancaq hökmdarlıq kürsüsündə görəcək, vətəni, "mənəmlik" iddialarına qurban verənlər də, şəxsi "mən"ini milli varlığımızdan üstün tutub, yadların qoltuğuna sığınıb, millətinə düşmən kəsilənlər də! Bir sözlə, qədim bir xalq olaraq, qərinələr boyu həm yadlar, həm də içimizdən olan haram süd əmənlər tərəfindən çox zərbələr almışıq. Millətimiz tarix boyu, elə dəyərli şəxsiyyətlər yetirib ki, onlar təkcə öz millətinin deyil, bəşəriyyətin inkişafı üçün misilsiz töhfələri ilə dünyanın diqqətini cəlb etmişlər. Fəqət, bütün bunlarla yanaşı, qanı kimdən olduğu bilinməyən, amma özünü bu millətdən hesab edən, elə zatıqırıqlar da yetirib ki, bu millət,əməlləri millətə zərər vurmaqla yanaşı, özlərinə nifrət qazandırmağa xidmət etmiş və xidmət etməkdədir. Qürurla xatırladığımız yüzlərlə, minlərlə qeyrət simvoluna çevrilmiş şəxsiyyətlərimizlə yanaşı, nə qədər arzuolunmaz olsa belə, belələrinin də olması labüddür və qaçılmazdır. Çünki biz min illər boyu yadların maraq dairəsində olmuşuq, bu gün də maraqlar dairəsindəyik. Belədə, bütün xalqlarda olduğu kimi, bizim içimizdə də haram süd əmmişlərin olmaması mümkün deyil və həmin maraqlar üçün də onlar ən rahat yemdir ki, günümüzdə bunun şahidi oluruq. Yəni deməyim odur ki, yaddaşlarımızda nə qədər qürurverici tariximizin olmasına baxmayaraq, utanc gətirən tarixi məqamlarımız da yox deyil və millətin yaddaşına "yad daşlar" kimi hopmuş belə nacinslər ucbatından tarixdə almadığımız zərbələr qalmayıb. Babək Xürrəmdin hərəkatı həmin "yad daşlar" hesabına xəyanətə qurban getmədimi? Şah İsmayıl Xətainin qurduğu Səfəvi imperiyasının dağıdılması və parçalanması, nəticədə, ruslarla farslar arasında bölünməyə məruz qalması da belə "yad daşlar"ın "fəaliyyətləri"nin ikrah doğuran nəticəsi olmadımı? Yaddaşlara hopan bu "yad daşlar"ın indiki günümüzdəki davamçılarının da olması, gərəkdir ki, təbii qarşılansın və təəccüb doğurmasın. Həmin zatıqırıqların törəmələridir ki, genlərində daşıdıqları milli ləyaqətsizlik sindromunu bu gün də ortaya qoyurlar. Fərq ondadır ki, o zamanların xəyanət üsulu başqa, bir az abırlı-həyalı idi, indinin xəyanət üsulu isə, açıq-aşkar, abır-ismət bilmədən törədilən əməllərdən ibarədir. Yenə rəhmətlik Şükür kişinin bir deyimi yadıma düşdü. M.Qorbaçov SSRİ-yə rəhbərlik edən zaman ölkədə rüşvət yeni forma almışdı. Bir gün Şükür kişi adəti üzrə belinə (yəni "lopatka"sına) söykənib gülümsünə-gülümsünə dedi: Ay camaat, məni qınamayın, əvvəllər bu rüşvət qız uşağı kimi abırlı-həyalı idi. Xəlvət verilirdi, alıb-verəndən başqa, heç kim bilmirdi. İndi rüşvət olub... ("əxlaqsız" sözünün sinonimini işlətdi) kimi bir şey. Kim kimə gəldi rüşvət verir, hamı da bilir! Rəhmətliyin sözü olmasın, keçmişdə xəyanətin də bir az abır-ismətlə edərdilər ki, nəsli var, kökü var, qırıq da olsa, zatı var! El bilər, nəslin hamısına nifrət eliyər. İndi milli satqınlıq olub Şükür kişi deyəndən. Bütün millət də, özləri də, özləri kimi nacins yaxın qohum-əqrəbaları da bilir ki, bu yol milli xəyanət yoludur, amma yollarından dönmək əvəzinə, iri addımlarla irəliləyirlər, bununla da fəxr edirlər. Yəni elə Avropadakı zənənlər və zənənəbənzərlər (oxu: geylər) kimi, bu əməllərindən də zövq alırlar. Burası belə. Yaxşı, içimizdə özünü müxalifət kimi ortaya atanlarımız niyə bu fakta, nəinki susur, hələ bir dəstək də verir? Deyək ki, bu millətin düşmənləri həmin zatıqırıqlardan istifadə edib, Azərbaycanı elədilər özlərinin vassalı (arzuları gözlərində qalar, inşaallah). O zaman vassal ölkədəmi hakimiyyət olmaq istəyəcəklər? Axı müxalifətin siyasəti hakimiyyətə gəlməyə yönəlir! Yəni xaricdən ölkəyə uzanan əllərin indiki hakimiyyətə deyil, ümumən Azərbaycan xalqına və dövlətinə uzandığını görmürlərmi? Görmürlərsə, kordurlar, görüb susur, hələ bir onlara züy də tuturlarsa, deməli, milli nankorlardı. Elə milli nankorluq da "yad daş" daşıyıcısı olmaq deməkdir. Yəni bu torpağın suyundan, havasından, torpağından deyil, yad havadan, yad sudan, yad torpaqdan yoğrulub, sadəcə, buruluğanlar vasitəsilə bu ölkəyə düşüblər. Dilimizi də öyrənib, özlərini bizim daşlar kimi təqdim edirlər. Bələləri ni istər xaricdə olsun, istər daxildə, hamısını yığıb çınqıl aqreqatının ağzına vermək gərək. Çınqıl aqreqatı onları elə üyüdüb quma çevirməlidir ki, həmin qırıq zatların kökü birdəfəlik qırılsın.Vəssalam!

# Milli qanunvericiliyin Avropa Məhkəməsinin presedent hüququna uyğunlaşdırılması

***Qanunvericilik tədbirlərinin həyata keçirilməsi sahəsində AR-in Avropa Məhkəməsi yanında səlahiyyətli nümayəndəsi mühüm rol oynaya bilər.***

Əsasən də, məhkəmənin qərarlarının hüquqi nəticələrinin öyrənilməsi və məhkəmənin presedent hüququnu nəzərə alaraq, qanunvericiliyin və hüquq tətbiqetmə təcrübəsinin təkmilləşdirilməsi üzrə, həmçinin, məhkəmənin çıxardığı qərarların hüquqi nəticəsini nəzərə alaraq, normativ-hüquqi aktların Avropa Konvensiyasının tələblərinə uyğunlaşdırılması və onların tətbiqi ilə bağlı Konvensiyanın tələblərinin pozulması hallarının qarşısını almaq üçün təkliflərin hazırlanmasında səlahiyyətli nümayəndənin rolu əhəmiyyətli ola bilər. Bu məqsədlə, həmçinin, səlahiyyətli nümayəndə yanında aidiyyəti dövlət qurumlarından (məsələn, Milli Məclisin aparatı, ədliyyə nazirliyi, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) aparatından ibarət tərkibdə “Qanunvericiliyin Avropa İnsan Hüquqları Konvensiyasına və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququna uyğun təkmilləşdirilməsi” üzrə xüsusi işçi qrup və ya komissiya təsis edilə bilər.

Z.Əliyev yazır: “Hesab edirik ki, milli qanunvericiliyin AİHK-yə uyğunlaşdırılması prosesi davam etdirilməlidir və cari qanunvericilik “Avropa hüquq standartları” (Avropa hüquq standartları termini altında AŞ çərçivəsində qəbul olunan insan hüquqlarına dair beynəlxalq-hüquqi aktlarda təsbit olunan standartlar nəzərdə tutulur) baxımından təkmilləşdirilməlidir. Azərbaycan qanunvericiliyində AİHK ilə ziddiyyət təşkil edən normalar mövcuddur. Düzdür, konstitusiyaya əsasən, hüquq tətbiq edən orqanlar, ilk növbədə isə, məhkəmələr beynəlxalq hüquq normasının dövlətdaxili hüquq norması ilə (konstitusiya və referendumla qəbul olunmuş aktlar istisna olmaqla) kolliziyası halında birincini üstün tutmalıdırlar. Lakin buna baxmayaraq, dövlət AŞ qarşısında, həmçinin, AİHK ilə və nəhayət, ümumi beynəlxalq hüququn mühüm prinsiplərindən olan beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipinə (pacta sunt servanda) uyğun olaraq, müvafiq qanunvericilik tədbirləri görməyə borcludur.”

Məsələn, AR Cinayət Prosessual Məcəlləsinin (CPM) 157.6-cı maddəsinə əsasən, “Həbsin qətimkan tədbiri qismində seçilməsi və ya seçilməsindən imtina edilməsi barədə məhkəmənin qərarından cinayət prosesinin tərəfləri Apellyasiya İnstansiyası Məhkəməsinə şikayət verə bilərlər. Apellyasiya İnstansiyası Məhkəməsinin bu məsələlərə dair qərarı qətidir”. CPM-in 453.10-cu maddəsinin tələbinə görə isə, “Apellyasiya İnstansiyası Məhkəməsi tərəfindən hakimin qanuniliyi və əsaslılığı artıq yoxlanılmış qərarından şikayətə və ya protestə təkrarən baxılmasına yol verilmir”. Qeyd olunan maddələrin məzmunundan, belə qənaətə gəlmək olar ki, həbs qətimkan tədbirinə dair tərəflərin Apellyasiya İnstansiyası Məhkəməsinə verdiyi şikayətlə bağlı, sonuncunun qəbul etdiyi qərar qətidir və ondan daha yuxarı instansiya məhkəməsinə şikayət və ya protest verilə bilməz.

CPM-in haqqında bəhs olunan norması AİHK ilə ziddiyyət təşkil edir. Belə ki, Konvensiyanın 6-cı maddəsi ədalətli məhkəmə araşdırılması hüququnu özündə ehtiva edir. Bu norma, eyni zamanda, məhkəmə prosesi iştirakçılarının “ədalət mühakiməsinin səmərəli həyata keçirilməsi hüququ”nu nəzərdə tutur.

Z.Əliyevin fikrincə, AİHM qeyd olunan maddəni şərh edərək, belə nəticəyə gəlmişdir ki, “məhkəməyə səmərəli müraciət hüququ” və “ədalət mühakiməsinin əlçatan olması hüququ”, bütövlükdə, 6-cı maddənin qayəsini təşkil edən “ədalətli məhkəmə araşdırması hüququ”nun mühüm elementləridir. Bilavasitə, 6-cı maddənin özündə nəzərdə tutulmasa da, Avropa Məhkəməsinin presedent hüququnun təhlili, bunu deməyə əsas verir ki, 6-cı maddənin effektiv implementasiyası və bu maddədə təsbit olunan və hüququn aliliyi prinsipinin bərqərar olunmasında müstəsna rol oynayan ədalətli məhkəmə hüququnun xəyali olmaması üçün “məhkəmənin əlçatan olması” prinsipinin təmini demokratik cəmiyyətdə mühüm önəm kəsb edir. Fikrimizcə, 6-cı maddənin ən mühüm tələblərindən biri ondan ibarətdir ki, məhkəmə araşdırılmasının iştirakçısı olan şəxs mübahisəni həll edə biləcək bütün mümkün məhkəmə instansiyalarına müraciət etmək hüququna malik olmalıdır. Bu baxımdan, kassasiya instansiyası ədalət mühakiməsinin effektiv həyata keçirilməsi sahəsində mühüm dövlətdaxili mexanizm qismində çıxış edir. Avropa Məhkəməsi də, bir sıra qərarlarında qeyd etmişdir ki, cinayət proseslərində kassasiya instansiyasının rolu əvəzsizdir və bu instansiyada işə baxılması təqsirləndirilən şəxs üçün olduqca önəmlidir (məsələn, Avropa Məhkəməsinin “Delcourt”, “Omar”, “Guerin” işləri üzrə qərarları).

Beləliklə, göründüyü kimi, şəxsin yuxarı instansiya məhkəməsinə müraciətdən məhrum edilməsi ədalətli məhkəmə araşdırılması hüququnun və xüsusilə də, onun mühüm komponentini təşkil edən “məhkəmənin əlçatan olması hüququ”nun pozuntusu kimi qiymətləndirilə bilər. Odur ki, CPM-in qeyd olunan normaları, ona münasibətdə üstün hüquqi qüvvəyə malik olan AİHK ilə ziddiyyət təşkil edir.

Z.Əliyev yazır: “Fikrimizcə, yuxarıda qeyd olunanlar milli qanunvericiliyin AŞ-nın müvafiq tələblərinə tam cavab vermədiyini göstərməklə yanaşı, onun AİHK-yə uyğunlaşdırılmasının zəruri olduğunu sübut edir.

Qeyd etmək lazımdır ki, Avropa Məhkəməsinə ərizə axınının qarşısını almaq üçün, ilk növbədə, effektiv dövlətdaxili məhkəmə sisteminin mövcudluğu vəmilliqanunların AŞ-nın tələblərinə, Avropa Konvensiyasına uyğunlaşdırılması zəruridir. İnsan hüquqlarının müdafiəsini, pozulmuş hüquqların ağlabatan müddət ərzində, səmərəli şəkildə bərpasını dövlətlər özləri təmin etməlidirlər.

İnsan hüquqlarının dövlətdaxili səviyyədə müdafiəsinin effektivliyinin artırılması üçün, ilk növbədə, məhkəmə sistemində islahatlar keçirmək, məhkəmələrin aşkarlıq, şəffaflıq, qanunçuluq, ədalət və qərəzsizlik prinsipləri əsasında fəaliyyətini təmin etmək lazımdır. Bu isə, demokratiya yoluna AŞ-nın üzvü olan bir sıra “klassik” demokratik rejimli dövlətlərlə müqayisədə yeni qədəm qoymuş, uzun müddət totalitar rejimdə olan və bu illərdə məhkəmələrin hakim partiyaya tabe olduğunu nəzərə alaraq, Azərbaycan üçün çox önəmlidir. Məhkəmə sistemində aparılan islahatlar daim təkmilləşdirilməli və davam etdirilməlidir. Hüquqi dövlətin formalaşdırılmasının, əsas insan hüquq və azadlıqlarının müdafiəsini təmin etmək sahəsində ən mühüm prinsip məhkəmə hakimiyyətinin müstəqilliyidir. Azərbaycanda elə bir səmərəli və effektiv hüquq müdafiə mexanizmi, ilk növbədə isə, məhkəmə sistemi formalaşmalıdır ki, insan hüquqlarının pozulduğu halda, bu pozulmuş hüquqlar milli səviyyədə, ağlabatan müddət ərzində və səmərəli şəkildə bərpa olunsun. Buna nail olmaq üçün, artıq qeyd etdiyimiz kimi, məhkəmə sisteminin hüququn ümumtanınmış prinsipləri əsasında fəaliyyətini təmin etmək lazımdır.”

Beləliklə, insan hüquq və azadlıqlarının təmin olunmasını, ilk növbədə, dövlətlər özləri təmin etməli və hüququ pozulmuş hər bir şəxsin pozulmuş hüquqlarının bərpası üçün milli səviyyədə səmərəli, effektiv və real dövlətdaxili hüquqmüdafiə mexanizmi olmalıdır. Bu sahədə Avropa Məhkəməsinin fəaliyyətinin əsas istiqamətlərindən biri Konvensiyanın iştirakçı-dövlətlərinin öz daxili hüquqi mexanizmləri vasitəsilə insan hüquqlarının müdafiəsini yüksək səviyyədə təmin etmək üçün, onlara bu sahədə istiqamət vermək və yardımçı olmaqdır.

Ümumilikdə, qeyd etmək olar ki, məhkəmənin presedent hüququ üzv dövlətlərin qanunvericiliyinin AŞ hüquq standartlarına uyğunlaşdırılmasında əhəmiyyətli rol oynayır. Avropa Məhkəməsinin qərarları, nəinki AŞ-yə üzv dövlətlərinin, həmçinin, digər dövlətlərin də qanunvericiliyinə müəyyən təsir göstərir və bir sıra digər universal və regional beynəlxalq hüquq-müdafiə mexanizmləri (xüsusilə də, Amerikaarası İnsan Hüquqları Məhkəməsi) Avropa Məhkəməsinin qərarlarına istinad edir.

Beləliklə, AİHM bu illər ərzində, səmərəli beynəlxalq hüquq- müdafiə mexanizmi kimi özünü təsdiq etmiş və bu gün də 47 üzv dövlətin 800 milyondan artıq əhalisinin pozulmuş hüquqlarının bərpasına, AŞ hüququnun inkişafına mühüm töhfələr verir. AİHM-in 50 illik fəaliyyətinin təhlili, onu deməyə əsas verir ki, bu unikal beynəlxalq hüquq-müdafiə mexanizminin potensialı hələ tükənməmişdir.

> Beləliklə, insan hüquq və azadlıqlarının təmin olunmasını, ilk növbədə, dövlətlər özləri təmin etməli və hüququ pozulmuş hər bir şəxsin pozulmuş hüquqlarının bərpası üçün milli səviyyədə səmərəli, effektiv və real dövlətdaxili hüquq-müdafiə mexanizmi olmalıdır. Bu sahədə Avropa Məhkəməsinin fəaliyyətinin əsas istiqamətlərindən biri Konvensiyanın iştirakçı-dövlətlərinin öz daxili hüquqi mexanizmləri vasitəsilə insan hüquqlarının müdafiəsini yüksək səviyyədə təmin etmək üçün, onlara bu sahədə istiqamət vermək və yardımçı olmaqdır.

**_VAHİD ÖMƏROV,_**
**_fəlsəfə üzrə fəlsəfə doktoru_**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*



# “Nar” gənclər üçün iş imkanları təklif etməkdə davam edir



Gənclərin peşəkar inkişafına hər zaman xüsusi diqqət ayıran “Nar”, Azərbaycan Dillər Universitetinin Bakı Amerika Mərkəzi və “ABŞ Təhsilli Azərbaycan Məzunları” İctimai Birliyinin birgə təşəbbüsü ilə mayın 18-də keçirilən “Karyera Günü və İş Yarmarkası”nda iştirak edib.

Tədbir boyu ölkənin nüfuzlu şirkətlərinin nümayəndələri ilə bilavasitə ünsiyyət qurmaq imkanı əldə edən 200-dən çox tələbə və məzun, eyni zamanda “Azerfon” MMC-də (“Nar” ticarət nişanı) mövcud vakant iş yerləri haqqında məlumat alıblar. “Nar” satış, xüsusi müştərilər, biznesin təhlili üzrə mütəxəssis vakant vəzifələrinə sənəd qəbulu təşkil edib. Bundan başqa, mütəxəssislər tərəfindən aparılan təqdimatlar zamanı gənclərə böyük şirkətlərdə işləməyin üstünlükləri, əmək bazarının real və tələbkar yanları, karyera planlaşdırılması, düzgün rezyume hazırlanması və müsahibə mərhələsinə hazırlıqla bağlı faydalı məlumatlar ötürülüb.

Qeyd edək ki, gənclərə dəstək və iş imkanlarına çıxışın təmin edilməsi “Nar”ın korporativ sosial məsuliyyət (KSM) strategiyasında yer alan istiqamətlərdən biridir. “Nar”ın davamlı olaraq həyata keçirdiyi KSM layihələri haqqında ətraflı məlumatı nar.az saytından əldə etmək olar.

“Azerfon” şirkəti (“Nar” ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. “Nar” ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. “Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar” şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2,2 milyona yaxın abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix müəllimliyi ixtisası üzrə III kurs tələbəsi Məcnunova Nazpəri Məcnun qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

### “Nar” istifadəçilərinin nəzərinə!

31.05.2019-cu il tarixindən etibarən “Günlük 59 qəpik” paketi ləğv olunacaq. Daha ətraflı məlumatı “nar.az” saytından əldə edə bilərsiniz.

# Azərbaycan dövləti gənclərə yüksək diqqət və qayğı göstərir

### YAP Mingəçevir şəhər təşkilatının gənclər birliyinin V konfransı keçirilib

***Yeni Azərbaycan Partiyası Mingəçevir şəhər təşkilatı gənclər birliyinin V konfransı keçirilib. Konfrans iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri düzərək, dahi şəxsiyyətin xatirəsini ehtiramla yad ediblər.***



Tədbiri giriş sözü ilə açan YAP Mingəçevir şəhər təşkilatı gənclər birliyinin sədri Bəxtiyar Mustafayev, IV konfransdan ötən müddət ərzində, görülən işlər barədə hesabat məruzəsi ilə çıxış edib.

Sonra konfrans iştirakçılarından Emin Paşayev, Eldar Dərişov, Elgiz Mirzəyev hesabat məruzəsi ətrafında çıxış edərək, görülmüş işləri qənaətbəxş qiymətləndiriblər.



Konfransda çıxış edən YAP Mingəçevir şəhər təşkilatının sədri Cavanşir Yusubov şəhər təşkilatının, ötən illər ərzində, gördüyü işlərdən, həyata keçirdiyi tədbirlərdən danışıb və bu tədbirlərdə, xüsusən, gənclərin aktiv fəaliyyətini müsbət qiymətləndirib.

Konfransda çıxış edən Mingəçevir şəhər İH-in başçısı İlham İsmayılov bildirib ki, Azərbaysan gəncliyi ölkəmizin inkişafı prosesində və uğurların qazanılmasında fəal iştirak edir: “Mingəçevir şəhərində quruculuq işlərində də gənclər, o cümlədən, YAP-ın üzvü olan gənclər yaxından iştirak edirlər”.

YAP Siyasi Şurasının üzvü, Milli Məclisin deputatı Aydın Mirzəzadə çıxışında Azərbaycan gəncliyinin potensial imkanlarının ortaya qoyulması üçün dövlətin göstərdiyi diqqət və qayğıdan bəhs edib. A.Mirzəzadə Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu dövlət-gənclər siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsi nəticəsində, gənclərimizin qazandıqları nailiyyətlərdən danışıb.

Sonra təşkilati məsələlərə baxılıb. YAP Mingəçevir şəhər təşkilatının 37 nəfərdən ibarət şura, 15 nəfərdən ibarət idarə heyəti müəyyənləşib. Bəxtiyar Mustafayev şəhər təşkilatı gənclər birliyinin sədri, Aytac Cavadova və Cavid Məmmədov isə sədr müavinləri seçilib.

Həmçinin, YAP Gənclər Birliyinin növbəti konfransına nümayəndələr seçilib.

***Rövşən RƏSULOV***

# “Nar TV” istifadəçilərinin sayı 117% artıb




Azərbaycan telekommunikasiya bazarının ən innovativ məhsullarından olan “Nar TV” tətbiqində qeydiyyatdan keçənlərin sayı 117% artıb. Hər zaman gənc nəslin dinamik tələblərinə cavab verməyi hədəfləyən “Nar”-ın təqdim etdiyi bu xidmətdən yararlananların seçiminə bir çox amillər təsir edir. Mobillik vəd edən tətbiq, zaman və məkan məhdudiyyəti olmadan istifadəçilərə mobil telefonlarda və ya tabletlərdə sevimli TV verilişlərini, film və serialları izləmə imkanı verir. Bundan başqa, istifadəçi təcrübəsinin yaxşılaşdırılması məqsədilə davamlı olaraq yenilənmələr aparılır və sistemə düzəlişlər edilir.

Xidmətin digər önəmli üstünlüklərindən biri də azyaşlı izləyicilərin tətbiqdə yalnız faydalı və uyğun kontenti izləməsi üçün valideyn nəzarət funksiyasının olmasıdır. Belə ki, xüsusi kanalları PİN kod vasitəsilə məhdudlaşdırmaq mümkündür.

“Nar TV” tətbiqi ilə seçilmiş filmləri Azərbaycan dilində də izləmək mümkündür. Qeyd edək ki, “Nar TV” tətbiqində hər kəsin zövqünə uyğun filmlərin mövcudluğunu təmin etmək üçün siyahıya mütəmadi olaraq yeni çıxan filmlər əlavə edilir. “Nar”-ın təqdim etdiyi bu məhsulun bütün üstünlüklərindən faydalanmaq üçün istifadəçilər “Google Play” və “App store”-dan yenilənmiş tətbiqi yükləməlidir. “Nar TV” haqqında daha ətraflı məlumatı buradan əldə edə bilərsiniz: nar.az

*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600